16 fevral 2024 №13 (2078) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Yeni dövr başlayır – yolumuz açıq olsun!..

“Biz bu dövrə alnımız açıq, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm”

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib. Andiçmə mərasimində birinci xanım Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşılayıblar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olunub.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətiriblər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olunublar.

Fərhad Abdullayev çıxış edərək Konstitusiya Məhkəməsinin 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etdiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunub.

Prezident İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içib: “Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!”.

Sonra Prezident müqəddəs “Qurani-Şərif”ə əl basaraq and içib: “Əlimi “Qurani-Şərif”ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam”.

Azərbaycan Respublikasının Dövlət Himni səslənib. Prezident İlham Əliyev təzim edərək, Azərbaycan Respublikasının Dövlət Bayrağını öpüb.

Prezident İlham Əliyev andiçmə mərasimində nitq söyləyib.

Dövlət başçısının geniş və dərin məzmunlu, proqram xarakterli, ərazi bütövlüyünü bərpa, suverenliyini tam bərqərar etmiş Azərbaycan Respublikasının bundan sonrakı inkişaf yolu, strateji hədəf və məqsədləri ilə bağlı fikirlərini bəyan etdiyi nitqindən bəzi məqamları diqqətə çatdırırıq.

### Söz və əməl: “2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi”

İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.

2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.

Verdiyim vədlər arasında, təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun, biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi iki il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik.



Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların və on minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, qururuq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq, şəhər və kəndlərimizi yenidən qururuq.

davamı səh. 2-də

## Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək

Bu il Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunacaq. Bununla bağlı Heydər Əliyev Mərkəzində forumun Bakı şəhərində keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası olub.

Mədəniyyət naziri Adil Kərimli çıxış edərək forumun əhəmiyyəti, ümumi məsələləri ilə bağlı məlumat verib.

səh. 3

## Astanada “Türk humanitar elmlər ensiklopediyası”nın təqdimatı

Xəbər verdiyimiz kimi, 2018-2023-cü illərdə Koreya Milli Araşdırmalar Fondunun maliyyə dəstəyi ilə Koreya dilində 8 cildlik “Türk humanitar elmlər ensiklopediyası” nəşr olunub.

Qazaxıstanın paytaxtı Astanada, Beynəlxalq Türk Akademiyasında nəşrin təqdimat mərasimi keçirilib.

səh. 3

## Afrika koloritli “Ümid sınağı”



Fevralın 14-də Heydər Əliyev Mərkəzində qanalı rəssam Kojo Marfonun “Ümid sınağı” (“Crucible of hope”) adlı fərdi sərgisi açılıb. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Kojo Marfo mərasimdən əvvəl jurnalistlərə açıqlamasında sərginin möhtəşəm təşkil edildiyini deyib: “Bakıya ilk gəlişimdir. Burada olmaqdan və sərgimi keçirməkdən çox məmnunam. İnsanları mədəniyyət yaxınlaşdırır. Mədəniyyət sahəsində bizləri birləşdirən bir çox xüsusiyyətlər var. İlk sərgimi keçirməzdən əvvəl kifayət qədər həyatımı düşündüm. Həyatıma bir çox simalar daxil oldu, məhz onlar mənim əsərlərimin özünü təşkil edirlər və onlar məni sərgi keçirməyə həvəsləndirdilər. Bu isə insana hər zaman ümid verir”.

davamı səh. 8-də

## “Tək səs, tək ürək” – Şimali Kiprdən sənət sovqatı

Fevralın 14-də Nizami Kino Mərkəzində “Tək səs, tək ürək” adlı konsert proqramı təqdim olundu. Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Azərbaycandakı təmsilçiliyi və Azərbaycan-Şimali Kipr Dostluq Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən konsertdə qardaş ölkədən gələn sənətçi qrupu – Çağdaş Musiqi Dərnəyi çıxış etdi.

Konsertdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, ŞKTC-nin Bakı təmsilçisi Ufuk Turqaner, Azərbaycan Milli Məclisinin üzvləri iştirak edirdilər.

Əvvəlcə Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğlu çıxış edərək cəmiyyətin fəaliyyəti haqqında söz açdı. Bildirdi ki, konsertin məqsədi iki qardaş ölkə arasında mədəni və ictimai əlaqələrin inkişafına töhfə verməkdir. O, konsertin Çağdaş Musiqi Dərnəyinin ölkəmizdə ikinci tədbiri olduğunu, kollektivin 2018-ci ildə də Bakıya təşrif buyurduğunu dedi.



ŞKTC-nin Azərbaycandakı təmsilçiliyinin rəhbəri Ufuk Turqaner diqqətə çatdırdı ki, Çağdaş Musiqi Dərnəyinin budəfəki konserti Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr edilib.

davamı səh. 2-də

## Nigar Nərimanbəyovanın əsərləri Paris sərgisində



Parisdə “Grand Palais Ephemere”də (Böyük Saray) “Art En Capital 2024” beynəlxalq müasir incəsənət sərgisi açılıb. Sərgidə Azərbaycanın Xalq rəssamı Vidadi Nərimanbəyovun sənətdə davamçısı olan Nigar Nərimanbəyovanın əsərləri də nümayiş olunur.

Artıq üç ildir bu sərgidə iştirak edən N.Nərimanbəyova bu il digər əsərləri ilə bərabər nəvəsinə həsr etdiyi “Tariel – balaca Harri Potter” adlı yeni tablosunu da təqdim edib.

Qeyd edək ki, N.Nərimanbəyova 2016-cı ildə Fransa Milli Mədəniyyət Federasiyası Müstəqil Fransa Rəssamlarının “Payız salonu”nun “Toile D’oR” ali mükafatına layiq görülüb.

“Art En Capital 2024” müasir incəsənət sərgisində nümayiş olunan əsərlər Fransa Rəssamlıq Akademiyasının üzvlərindən ibarət böyük münsiflər heyəti tərəfindən seçilib. Sərgi fevralın 18-dək davam edəcək.

## Tarix-mədəniyyət abidələrinin siyahısına əlavələr ediləcək

Mədəniyyət Nazirliyi yanında daşınmaz mədəni sərvətlərin müəyyən edilməsi üzrə Ekspert şurasının növbəti iclası keçirilib.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva çıxış edərək bildirib ki, iclas ölkə üzrə tarix, memarlıq və dekorativ-tətbiqi sənət əlaməti olan 95 obyektin daşınmaz tarix-mədəniyyət abidələrinin siyahısına daxil edilməsi üçün müvafiq addımların müzakirəsi məqsədi daşıyır.

Ekspert şurasının sədri, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova müzakirəyə çıxarılan tarix, memarlıq və dekorativ-tətbiqi sənət əlaməti daşıyan obyektlər barədə məlumat verib. Qeyd edib ki, müvafiq siyahıya daxil edilməsi üçün müzakirəyə çıxarılan mədəni irs dəyərinə malik obyektlər işğaldan azad edilmiş ərazilərdə və Bakı şəhərində yerləşir.

davamı səh. 3-də

## “Muzeydə musiqi” layihəsində ilk konsert

Azərbaycan Milli İncəsənət Muzeyi “Muzeydə musiqi” adlı yeni layihəyə başlayıb. Layihə çərçivəsində görkəmli alman bəstəkarı İ.S.Baxa həsr edilmiş “Siz Baxı sevirsinizmi?” adlı ilk konsert təqdim olunub.

Tamaşaçılar qarşısında Əməkdar artist Fuad İbrahimovun dirijorluğu, Səidə Tağızadənin solistliyi ilə Bakı Kamera Orkestri çıxış edib. Konsertə gələn qonaqlar üçün muzeyin ekspozisiyası ilə tanış olmaq imkanı da yaradılıb.

Mədəniyyət Nazirliyi və Milli İncəsənət Muzeyinin təşkilatçılığı ilə reallaşan layihənin hər mərhələsi musiqi və təsviri sənətin müəyyən epoxasına həsr olunacaq.

Ölkəmizin aparıcı musiqi ocaqları ilə əməkdaşlıq əsasında hər ay yeni proqram tərtib olunacaq. Tamaşaçılara həm dünya klassik musiqisindən, həm Azərbaycan bəstəkarlarının yaradıcılığından əsərlər, həm də milli, caz, etnik musiqi təqdim ediləcək.





“Azərbaycan muğamı”nda ustad dərsi

səh. 2



Gəncə səhnəsində “Pəri cadu”

səh. 4



Brüsseldə “Naxışların rəqsi”

səh.8

№13 (2078)
16 fevral 2024
www.medeniyyet.az

# Yeni dövr başlayır – yolumuz açıq olsun!..

əvvəli səh. 1-də

### Xankəndidə separatçıların tabutuna vurulan son mismar

Müharibədən keçən dövr ərzində biz öz prinsipial mövqeyimizi bütün məsələlərdə göstərmişdik, həm beynəlxalq vasitəçilik etməyə çalışanlarla, həm Ermənistan tərəfi ilə çoxsaylı görüşlər zamanı bildirilmişdir ki, onların üzərinə götürdükləri bütün öhdəliklər yerinə yetirilməlidir... Üç il ərzində biz yenə də səbir göstərmişdik, biz yeni gərginləşmə vəziyyəti yaratmaq fikrində deyildik və İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər keçən dövr ərzində bunun bütün xronoloji məqamları bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir. Düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil...

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.

Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim... Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

### Yeni dövrə alnımız açıq, başımız dik daxil oluruq

İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik...

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Biz elə Ordu yaratmışıq ki, – bundan sonra da bu işlər davam edəcək, – heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır... Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.






...Biz eyni zamanda, sərhədlərimizi daha da güclü qorumalıyıq. Bunu da qarşıya önəmli vəzifə kimi qoyuram... Əlbəttə ki, sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır və biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin. Sərhədlərimizin qorunması eyni zamanda, bizi xarici risklərdən qoruyacaq.

### Milli-mənəvi dəyərlər cəmiyyətimizin əsasıdır

Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu, demək olar ki, gündəlik həyatda görürük...

Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, – təkcə son 30 il ərzində yox, – torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır.

Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi – bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük...

### Azərbaycançılıq məfkurəsini daha da gücləndirməliyik

Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var.

Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz – onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də, buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik. Biz hamımız şəhidlər vermişik, qan tökmüşük. Erməni işğalçılara qarşı sinəmizi qabağa verib döyüşə getmişik. Bu birlik, bu həmrəylik və bu şanlı Zəfər tarixi Azərbaycanda yaşayan bütün xalqları daha da sıx birləşdirir və bu da əsas vəzifələrdən biri kimi qarşıya qoyulur.

### Qarabağın, Şərqi Zəngəzurun bərpası və Böyük Qayıdış

Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib... 120 min hektar artıq təmizlənib, amma minalanmış ərazi qat-qat daha genişdir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır.

Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar inşa edilir... Yəni, geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək.

### Texnoloji inkişaf və milli kadr hazırlığı

Vacib vəzifələrdən biri texnoloji inkişafımızdır. Bu gün istər sənaye inkişafı sahəsində, istər hərbi sənaye kompleksi sahəsində və ümumiyyətlə, hərbi sahədə texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır. İkinci Qarabağ müharibəsi zamanı hər kəs bunu gördü, antiterror əməliyyatı zamanı da... Biz texniki vasitələr hesabına İkinci Qarabağ müharibəsindən minimum itkilərlə çıxmışıq. Ona görə texnoloji inkişafla bağlı hədəflər müəyyən edildi, bütün aidiyyəti qurumlara tapşırıqlar verildi və bu iş, əlbəttə ki, böyük bir səfərbərlik tələb edən işdir. Sadəcə olaraq, dövlət siyasəti burada yetərli deyil. Biz, əlbəttə ki, yeni texnologiyaları alırıq, texnoloji inkişafa böyük dəstək veririk, ancaq burada vacib məsələlərdən biri kadr hazırlığıdır.

Deyə bilərəm ki, bu istiqamətdə son 1-2 il ərzində böyük inkişaf mövcuddur, bəlkə də ictimaiyyət o qədər də məlumatlı deyil. Ancaq kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək. Son müddət ərzində bir neçə min Azərbaycan gənci treninqlərdən keçib, xüsusi proqramlardan keçib. Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi – bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks təqdirdə, biz geridə qalacağıq. Biz isə geridə qala bilmərik. Biz elə bir bölgədə yerləşirik, bizə qarşı elə bir qüvvələr birləşib ki, bizə ziyan vurmaq üçün fürsət axtarırlar... Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni, bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik. Ona görə hesab edirəm ki, bütün qurumlar və eyni zamanda cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir.

### Xarici siyasətdə əsas prioritet: Türk Dövlətləri Təşkilatı

Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb – bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq... Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, – bunu hamı bilir, – daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

Bu gün Azərbaycanın beynəlxalq nüfuzu, hesab edirəm ki, heç kimə sirr deyil. Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir.

Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur. Biz o ayrıcı xətləri çəkməmişik, biz bu ayrıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu olmayacaq! Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik.

### Biz məsələmizi həll etmişik, siz də öz işinizlə məşğul olun

Nəhayət, Azərbaycan-Ermənistan münasibətləri. Mən çıxışımın sonunda bu məsələyə təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək, heç olmasa, üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa, üzdə diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək.

Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulideyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!

## "Tək səs, tək ürək" – Şimali Kiprdən sənət sovqatı




əvvəli səh. 1-də

Şimali Kiprlə Azərbaycan arasında əlaqələrin inkişafından danışan U.Turqaner bildirdi ki, bundan əvvəl bu il 100 illiyi qeyd olunan Naxçıvan Muxtar Respublikasında da konsert proqramı ilə çıxış edib: "Bu bizim üçün ayrı bir xoşbəxtlikdir. Mədəni əlaqələr iki qardaş ölkə arasında könül bağının birliyi üçün çox önəmlidir. Şimali Kiprin Azərbaycandakı təmsilçiliyi olaraq bu cür fəaliyyətlərə əhəmiyyət veririk".

U.Turqaner çıxışının sonunda tədbirin reallaşmasında göstərdiyi dəstəyə görə Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirdi.

Çıxışlardan sonra təqdim edilən konsert proqramında Çağdaş Musiqi Dərnəyinin xoru (dirijor və bədii rəhbər Ersin Tunay) bir-birindən maraqlı, unudulmaz türk musiqilərini ifa etdi. Qardaş ölkə kollektivinin çıxışı alqışlarla qarşılandı.

Qeyd edək ki, Çağdaş Musiqi Dərnəyi Ersin Tunayın rəhbərliyi ilə 2013-cü ildə 18 musiqi könüllüsü ilə birgə yaradılıb. Bu gün kollektiv 85 üzvü ilə Şimali Kiprin ən böyük klassik musiqi xoru kimi uğurla fəaliyyət göstərir.

**Lalə**

## "Azərbaycan muğamı" layihəsi üzrə ilk ustad dərsi

Fevralın 15-də Beynəlxalq Muğam Mərkəzində (BMM) "Azərbaycan muğamı" adlı yeni layihə çərçivəsində tar ifaçılıq sənəti ilə bağlı silsilə ustad dərslərinin birincisi keçirildi.

BMM-in direktoru Sahib Paşazadə iştirakçıları salamlayaraq layihənin əhəmiyyətindən danışdı. Bildirdi ki, layihənin məqsədi klassik ifaçılıq məktəbimizin yaşadılması və gələcək nəsillərə ötürülməsi, ustad-şagird ənənələrinin qorunmasıdır. İl ərzində mütəmadi olaraq təşkil ediləcək ustad dərslərində tar ifaçılıq sənətinin görkəmli nümayəndələrinin iştirakı nəzərdə tutulub. Ustad dərslərində iştirak sərbəstdir və maraqlanan hər kəs iştirak edə bilər.

Tanınmış tarzən və pedaqoq Elxan Müzəffərov muğam sənətinin məsuliyyət və diqqət tələb etdiyini dedi. Bildirdi ki, bu qədim sənət əsrlərdən üzü bəri nəsildən-nəslə ustad-şagird ənənələri ilə ötürülür. O, layihə üzrə ilk ustad dərsinin ona həvalə olunmasından məmnunluğunu da dilə gətirdi.

Daha sonra dərs Milli Konservatoriya nəzdində Musiqi Kolleci tələbələrinin iştirakı ilə davam etdi. "Rast" muğamına həsr olunan dərsdə kollecin direktoru Nazim Kazımov çıxış edərək 57 il əvvəl Elxan Müzəffərovdan tar sənətinin sirlərini öyrəndiyini dedi, gənclərə bacardıqları qədər ustaddan ifaçılıq texnikalarını mənimsəməyi tövsiyə etdi.

Ustad dərsində bir çox nadir ifa olunan guşələrin adı çəkildi, onların ifa xüsusiyyətləri izah olundu. Tanınmış tarzənlərin də qatıldığı dərsdə



"Rast"ın şöbələrinin ifasında mizrab vurğu və bölgüləri, ifada sürət-pauza və s. mövzularda diskussiya aparıldı. Nəzəri məlumatlar əyani ifalarla diqqətə çatdırıldı.

# Bakıda növbəti Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək

## Forumun Təşkilat Komitəsinin ilk iclası olub



Bu il Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunacaq. Bununla bağlı Heydər Əliyev Mərkəzində forumun Bakı şəhərində keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası olub.

Mədəniyyət naziri Adil Kərimli çıxış edərək forumun əhəmiyyəti, ümumi məsələləri ilə bağlı məlumat verib. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulan "Bakı Prosesi" çərçivəsində keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyətlərarası dialoq sahəsində beynəlxalq və qlobal səviyyədə yeganə platformadır. 2011-ci ildə Bakıda ilk dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu daha sonra 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil edilib.

Qeyd olunub ki, Prezident İlham Əliyev tərəfindən 2024-cü il mayın 1-dən 3-dək növbəti – VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi ilə bağlı tapşırıq verilib. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri tərəfindən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planı çərçivəsində dövlət strukturlarının qarşısında müəyyən öhdəliklər qoyulub.

Təşkilat Komitəsinin İşçi qrupunun rəhbəri, mədəniyyət nazirinin müavini Fərid Cəfərov foruma hazırlıqla bağlı geniş təqdimatla çıxış edib. Bildirilib ki, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusuna həsr olunub.

İclas Təşkilat Komitəsinin görəcəyi işlərin müzakirəsi ilə davam edib.

Xatırladaq ki, 2011-ci ilin 7-9 aprel tarixlərində Bakıda 100-dən çox dövlətin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilən I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundan sonra Prezident İlham Əliyev, bu beynəlxalq tədbirin İslam dünyası ilə Qərb sivilizasiyası və eləcə də digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla, hər iki ildən bir keçirilməsi barədə sərəncam imzalayıb. Dövlət başçısının 27 may 2011-ci il tarixli sərəncamı ilə forumun təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (həmin vaxt Mədəniyyət və Turizm Nazirliyi) müəyyən edilib.

# Tarix-mədəniyyət abidələrinin siyahısına əlavələr ediləcək

## Ekspert şurasının iclasında 95 obyekt müzakirəyə çıxarılıb




əvvəli səh. 1-də

Şura üzvlərinin müzakirəyə çıxarılan məsələlərlə bağlı fikir və təklifləri dinlənilib.

Üzvlərin yekdil qərarı ilə öncə işğaldan azad olunmuş ərazilərdə Dövlət Xidməti tərəfindən aparılan monitorinq və inventarlaşma işləri nəticəsində aşkar olunmuş obyektlər müzakirə olunub.

Ağdam rayonunun Əlimədətli, Boyəhmədli, Qızıl Kəngərli, Eyvazxanbəyli kəndlərində yerləşən türbələrin, Kəngərli kəndində yerləşən körpünün, Şahbulaq, Abdal və Gülablı kəndlərində yerləşən məscidlərin, Ağdam şəhəri və Gülablı kəndindəki hamamların dövlət mühafizəsinə götürülməsi üçün müvafiq addımların atılması məqsədəuyğun hesab edilib.

Qeyd edək ki, Ekspert şurası "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarına müvafiq əlavə və dəyişikliklər edilməsi məqsədilə təsis olunub. Şurada Mədəniyyət Nazirliyi, nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, komitənin Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi, Bakı Şəhər İcra Hakimiyyəti, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, Dövlət Turizm Agentliyi, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Memarlar İttifaqı, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və Naxçıvan MR Mədəniyyət Nazirliyi təmsil olunur.

# Muxtar respublikanın 100 illiyi münasibətilə

## Bakıda Naxçıvan incəsənət nümayəndələrinin iştirakı ilə konsert

Fevralın 14-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Naxçıvan Muxtar Respublikasının (NMR) yaranmasının 100 illiyi münasibətilə Naxçıvanın incəsənət nümayəndələrinin konserti keçirilib.

Konsertdən əvvəl Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov və NMR mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Seyidovun çıxışları dinlənilib.

Musiqili gecədə Naxçıvanın incəsənət nümayəndələri Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin (bədii rəhbəri və baş dirijor – Xalq artisti Ağaverdi Paşayev) müşayiəti ilə Azərbaycan bəstəkarlarının əsərlərini səsləndiriblər. Həmçinin bir neçə musiqi nömrəsində dirijor pultu arxasına Naxçıvan Musiqi Kollecinin müəllimi, Əməkdar artist Elman Əliyev keçib.



Nazim Quliyevin "Nəqşicahan" baletindən "Uvertüra" ilə başlayan gecədə Süleyman Ələsgərov, Səid Rüstəmov, Ramiz Mirişli, Ələkbər Tağıyev, Hacı Xanməmmədov, Həsən Rzayev, Firəngiz Babayeva kimi görkəmli bəstəkarların əsərləri, həmçinin xalq mahnıları səsləndirilib.

Konsert zamanı NMR-in Əməkdar mədəniyyət işçisi, görkəmli tarzən Əkrəm Məmmədlinin muxtariyyətin 100 illiyinə həsr etdiyi "Yurdum mənim" əsəri ilk dəfə ifa edilib.

Respublikanın Əməkdar artistləri Vilayət İsmayılov, Tural Nəcəfov, NMR-in Əməkdar artistləri Zülfiqar Mahmudov, Ruhiyyə Hüseynova və Aqib Seyidov (kamança), respublika və beynəlxalq müsabiqələr laureatları Sevinc Babayeva (qanun) və solist İlkin Abdullayev tərəfindən təqdim olunan musiqi nömrələri alqışlarla qarşılanıb.

Proqram Xalq artisti Gülyanaq Məmmədova və Zülfiqar Mahmudovun ifasında "Naxçıvan şikəstəsi" ilə sona çatıb.

# Zamanla ayaqlaşmaq üçün

## ADMİU-da çağdaş Britaniya dramaturgiyası ilə bağlı layihə

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Britaniya Şurasının (British Council) Bakıdakı nümayəndəliyi ilə əməkdaşlıq çərçivəsində "Böyük Britaniyanın çağdaş dramaturgiyası: tanıma" adlı yeni layihəyə başlanılıb.

Fevralın 12-də ilk tədbiri keçirilən layihənin rəhbəri ADMİU-nun Teatrşünaslıq kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Cəfərovdur.

Universitetin rektoru Əməkdar incəsənət xadimi, professor Ceyran Mahmudova layihənin əhəmiyyətindən bəhs edərək bildirdi ki, universitet hər zaman tələbənin maariflənməsi, daha geniş səpkili və dolğun biliklər əldə etməsi üçün çalışır, bu istiqamətdə dünyanın qabaqcıl universitetlərinin təcrübələrini örnək alaraq yeni layihələr hazırlayır. İlk tədbiri keçirilən "Böyük Britaniyanın çağdaş dramaturgiyası: tanıma" layihəsi də bu qəbildəndir.

Britaniya Şurasının Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva layihənin yaranma tarixçəsindən danışdı. Bildirdi ki, Elçin Cəfərovun "Kreativ prodüserlər proqramı" çərçivəsində yaradılmış "Katalizator ArtHub" müvafiq mərhələləri uğurla keçərək Britaniya Şurasının dəstəklədiyi 7 layihədən biri olub. O, gələcəkdə bu qəbildən olan incəsənət yönümlü layihələrin və birgə təşəbbüslərin davam etdiriləcəyinə inamını ifadə etdi.



Sonra Elçin Cəfərov çıxış edərək layihənin məzmunu, görüşlərin proqramı, beynəlxalq və yerli mütəxəssislər, layihə komandası haqqında danışdı. Vurğulandı ki, layihənin əsas məqsədi Azərbaycan tamaşaçısında müasir Böyük Britaniya dramaturgiyası haqqında təsəvvür yaratmaqdır.

Tədbirin ilk hissəsində "Böyük Britaniyada çağdaş teatr: dramaturgiya" mövzusunda dramaturq, London Nitq və Dram Sənəti Kral Məktəbində Dramaturgiya kafedrasının müəllimi Sara Qroçalanın spikerliyi ilə seminar keçirildi.

Ardınca universitetin kiçik səhnəsində "Böyük Britaniya dramaturgiyasında sosial mövzu dominant konsept kimi" adlı müzakirə aparıldı. Nik Peynin "Bürclər" pyesinin qısa fraqmentinin oxunuşu oldu. Oxunuşu ADMİU-nun Dram teatrı və kino aktyorluğu üzrə IV kurs tələbələri Ləman Səlimova, Nicat İsgəndərli və Fidan Ağazadə həyata keçirdilər. Daha sonra pyesin müzakirəsi aparıldı, əsərin ideyası və Azərbaycan cəmiyyətinə mesajları haqqında diskussiya keçirildi.

Layihə çərçivəsində növbəti tədbir fevralın 23-nə nəzərdə tutulub.

**Həmidə**

# Milli Dram Teatrında rusiyalı mütəxəssislərin ustad dərsləri təşkil olunacaq

Teatr sənəti üzrə tanınmış rusiyalı pedaqoq və aktyorlar Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında ustad dərsləri keçəcəklər.



Ustad dərsləri Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Rusiyanın Aleksandrinski Teatrı (Sankt-Peterburq), Azərbaycan Teatr Xadimləri İttifaqının və Dövlət Akademik Milli Dram Teatrının təşkilatçılığı ilə "Aleksandrinski Teatr Məktəbi" təhsil layihəsi çərçivəsində reallaşacaq.

Layihə RF Mədəniyyət Nazirliyi və MDB-yə üzv ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun dəstəyi və Aleksandrinski Teatrının direktoru Sergey Yemelyanovun rəhbərliyi ilə keçiriləcək.

Ustad dərsləri "Müasir milli teatrda idarəetmənin əsasları" və "Müasir kontekstdə fəaliyyət" proqramları üzrə əyani üçgünlük intensiv proqramdan ibarətdir. "Müasir milli teatrda idarəetmənin əsasları" proqramı menecment məsələlərini, "Müasir kontekstdə fəaliyyət" proqramı isə aktyor sənətini əhatə edir. Hər iki istiqamət üzrə ustad dərsləri Sankt-Peterburq Dövlət Universiteti və Rusiya Dövlət Səhnə Sənətləri İnstitutunun müəllimləri, həmçinin Aleksandrinski Teatrının mütəxəssisləri tərəfindən aparılacaq.

"Müasir milli teatrda idarəetmənin əsasları" proqramı üzrə 35 dinləyici nəzəriyyəni öyrənəcək və paralel olaraq 5-6 komandaya bölünərək ekspertlərin dəstəyi ilə öz yaradıcılıq layihələrini inkişaf etdirəcəklər. Daha sonra komandalar ekspertlərin qarşısında layihələrini müdafiə edib şəhadətnamə alacaqlar.

"Müasir kontekstdə fəaliyyət" proqramında isə 25 dinləyici nəzəriyyəni öyrənəcək və praktik məşğələlərdə iştirak edəcək. Yekunda onlara proqramın mənimsənməsinə dair dövlət nümunəli şəhadətnamələr təqdim olunacaq.

Layihə çərçivəsində Aleksandrinski Teatrı və Milli Dram Teatrı arasında memorandum imzalanması, "Rus səhnəsinin seçilmiş obrazları" sərgisinin açılışı da nəzərdə tutulub.

Qeyd edək ki, 2023-cü ilin noyabrında Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Akademik Milli Dram Teatrı IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda təmsil olunub. Forum çərçivəsində Aleksandrinski Teatrı ilə qarşılıqlı səfərlərin təşkili, o cümlədən "Milli Teatr Məktəbi" layihəsi çərçivəsində ustad dərsləri ilə bağlı razılıq əldə edilmişdi.

# Astanada "Türk humanitar elmlər ensiklopediyası"nın təqdimatı

Xəbər verdiyimiz kimi, 2018-2023-cü illərdə Koreya Milli Araşdırmalar Fondunun maliyyə dəstəyi ilə Koreya dilində 8 cildlik "Türk humanitar elmlər ensiklopediyası" nəşr olunub.

Qazaxıstanın paytaxtı Astanada, Beynəlxalq Türk Akademiyasında nəşrin təqdimat mərasimi keçirilib.

AMEA-dan bildirilib ki, sözügedən nəşr Türk dünyası ölkə və xalqlarının (Türkiyə, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, habelə Rusiya Federasiyasının Tatarıstan, Başqırdıstan, Altay, Xakasiya, Tuva və Saxa respublikaları, həmçinin Çinin Sincan-Uyğur Muxtar Vilayəti) dili, ədəbiyyatı, tarixi, incəsənəti, coğrafiyası, folkloru və s. sahələri əhatə edir.



BTA-nın vitse-prezidenti Aşat Kəsikbayev qurumun həyata keçirdiyi layihələr haqqında məlumat verib.

Lev Qumilyov adına Avrasiya Milli Universitetinin prorektoru Serik Makış türk və Koreya dil əlaqələrinin tədqiqi ilə bağlı fikirlərini bölüşüb.

Layihənin rəhbəri, Cənubi Koreyanın Donqduk Qadın Universitetindəki Avrasiya Türk Araşdırmaları İnstitutunun direktoru professor Eunkyung Oh "Türk humanitar elmlər ensiklopediyası"nın nəşr tarixindən danışıb, Koreyada türkologiya araşdırmaları məsələsinə toxunub.

Çıxış edən türkoloqlar Koreya və türk dilləri arasındakı oxşarlıqlara linqvistik baxımdan yanaşaraq qədim türklərin Koreya ilə əlaqələrindən bəhs ediblər. Bildirilib ki, 8 cildlik nəşr 4500 səhifədən ibarətdir və iki mindən çox anlayışın ətraflı təsvirini təqdim edir.

# "Qafqazda multikulturalizm" – azərbaycanlı və gürcü alimlərin elmi seminarı

Azərbaycan Universitetinin (AU) Tərcümə və filologiya, Siyasi və ictimai elmlər kafedraları və Akaki Sereteli adına Gürcüstan Dövlət Universitetinin (GDU) professor-müəllim heyətinin iştirakı ilə "Qafqazda multikulturalizm" mövzusunda beynəlxalq elmi seminar keçirilib.



Hibrid formatda təşkil olunan seminarda AU-nun professoru, filologiya elmləri doktoru Asif Hacıyevin "Tarixi coğrafiya və Azərbaycan multikulturalizmi", GDU-dan filologiya elmləri doktoru, professor İrine Çaçanidze və filologiya üzrə fəlsəfə doktoru Tamar Quçuanın "Bakının gürcü diasporunda dil və mədəniyyət məsələləri", AU-nun Siyasi və ictimai elmlər kafedrasının müdiri siyasi elmlər üzrə fəlsəfə doktoru Elvin Talışinskinin "Azərbaycanın müasir siyasətində multikulturalizm konsepsiyasının əhəmiyyəti", kafedranın müəllimləri – tarix üzrə fəlsəfə doktoru Abbas Qurbanovun "Milli kimliyin formalaşmasında ailənin rolu", fəlsəfə üzrə fəlsəfə doktoru Rauf Səmədovun "Azərbaycan dini tolerantlığın təkrarolunmaz nümunəsi kimi" və s. məruzələr dinlənilib.

Seminarda Azərbaycan-Gürcüstan əlaqələrinin qarşılıqlı hörmət və etimada əsaslandığı qeyd olunub.

Professor İrine Çaçanidze seminarın təşkilində əməyi keçən hər kəsə və iştirakçılara təşəkkürünü bildirib.

## Yenə "Pəri cadu"

Fevralın 14-də Gəncə Dövlət Dram Teatrında Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" dramı əsasında tamaşanın premyerası keçirilib.



Premyeranı izləyənlər arasında şəhərin icra başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop da olub.

Teatrın baş rejissoru Elşad Əhmədov quruluş verdiyi tamaşada əsərə xas magik realizmi ön planda saxlamağa çalışıb. Əsər nəfsinə məğlub olmuş Qurban, Hafizə xanım, Pəri, Səlimə kimi insanların taleyindən bəhs edir. Qəhrəmanlar tapdalanmış qürurlarını təmin etmək üçün ən alçaldıcı əməllərə də rahatlıqla əl atır və bəlalara uğrayaraq məhv olurlar...

Səhnə işində əsas rolları Əməkdar artistlər Sevda Orucova, Kəmalə Məmmədova, aktyorlar Günay Cabbarova, Sevinc Hüseynova, Ruslan Hüseynov, Emil Salmanov və Elmir Məmmədov ifa edirlər. Birhissəli tamaşanın quruluşçu rəssamı Mirzə Mehdi, xoreoqrafı Zeynəb Hüseynova, musiqi tərtibatçısı Ziyad Abbasovdur.

## Bəşəri bəla rənglərdə

Cəlilabad Dövlət Rəsm Qalereyası, rayon Tarix-Diyarşünaslıq Muzeyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə açıq havada "Narkomaniyaya yox deyək!" başlıqlı sərgi keçirilib.



Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir iştirakçıları narkomaniyanın acı fəsadlarından danışaraq onunla mübarizə istiqamətində maarifləndirmə, təbliğat və profilaktika işlərinin aparılmasının vacibliyini vurğulayıblar.

Sərgidə qalereyanın tərtibatçı rəssamı Ramilə Quliyevanın şagirdlərinin əl işləri nümayiş olunub.

## Gənclər üçün təlim

Masallı rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Masallı bölməsinin təşkilatçılığı və "Ziyalı" tədris mərkəzinin tərəfdaşlığı ilə gənclər üçün təlim keçirilib.



"Sağlam gənclik, sağlam gələcək" layihəsi çərçivəsində gerçəkləşən təlimin əvvəlində Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva, "Ziyalı" tədris mərkəzinin direktoru Könül Şahmarova gəncləri salamlayıb, layihənin gənclərin şəxsi inkişafında xüsusi yeri olduğunu vurğulayıblar.

Təlimçi Orxan Əliyevin iştirakı ilə "İnsan hüquqları üzrə təhsil", "Stereotiplər və ön mühakimələr" kimi mövzulardan danışılıb, gənclər qrup işləri icra edərək müzakirələr aparıblar.

## "Beynəlxalq Kitab Bağışlama Günü" münasibətilə

Şirvan-Salyan RMİ və Şirvan-Salyan RTİ-nin birgə təşkilatçılığı ilə Şirvan şəhər 4 nömrəli "Qərənfil" uşaq bağçası-körpələr evində "Beynəlxalq Kitab Bağışlama Günü"nə (14 fevral) həsr olunan tədbir keçirilib.



Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov, RTİ-nin rəisi Sənan Mənsimli, Şirvan-Salyan RGİİ-nin rəisi Aydın Yusifov tədbirdə iştirak ediblər.

Çıxışlarda bu cür tədbirlərin uşaqların gələcəyi üçün əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, erkən yaşlarından uşaqlara mütaliə vərdişi aşılamaq qalib xalqın qalib vətəndaşlarının intellektual səviyyələrinin artırılmasına, onların vətənpərvər ruhda böyüməsinə köməklik edir.

Tədbirdə Şirvan şəhər Mərkəzi Kitabxanası Uşaq şöbəsinin əməkdaşları azyaşlılara nağıllar oxuyub, kitablar bağışlayıblar.

Uşaq bağçası fidanlarının ifasında Şarl Perronun "Qırmızıpapaq" nağılı əsasında hazırlanan səhnəcik maraqla qarşılanıb.

## Bu il Kərkicahan qəsəbəsinə də köç olacaq

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinin daha bir qrup sakini ilə görüşüb.

Komitədən verilən məlumata görə, dövlət başçısının işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin doğma yurda effektiv qayıdışı ilə əlaqədar tapşırıqlarının icra vəziyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verilib.

Qeyd olunub ki, bu il Kərkicahan qəsəbəsinə məcburi köçkünlərin ilk qrupunun qayıdışı nəzərdə tutulub.

Qəbulda iştirak edən sakinlər doğma yurda qayıtmağa hazır olduğunu bildiriblər.

**Hazırladı: N.Məmmədli**

# Naxçıvan səhnəsində premyera

## "Qatarın altına atılan qadın"

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Xalq yazıçısı Afaq Məsudun "Qatarın altına atılan qadın" əsəri əsasında hazırlanan tamaşanın premyerası olub.



Fevralın 10-da təqdim olunan səhnə əsərinin quruluşçu rejissoru və musiqi tərtibatçısı Əlisahib Cəlil, quruluşçu rəssamı Səyyad Bayramov, rejissor assistenti Behruz Haxverdiyevdir. Dram janrlı tamaşada rolları Azərbaycanın Əməkdar artistləri Nazlı Hüseynquliyeva, Əli Əliyev, Behruz Haxverdiyev və başqaları oynayırlar.

Tamaşanın qəhrəmanı həyatını sənətə qurban verən, amma illər keçdikcə "zəmanə uşaqları" tərəfindən səhnədən vağzala sıxışdırılan aktrisa Gültəkin Sarabskayadır. O bəzi səhnə geyimlərini, vaxtilə oynadığı pyeslərin yer aldığı kitabları götürüb gəlib vağzala. Tamaşaçı vağzalla səhnəni eyni məkanda görür. Burada vağzal həm də həyatla ölüm arasında bir sərhədə bənzəyir. Vağzaldakı bir səfil Gültəkin Sarabskayanın bu sərhədi keçməsinə mane olur. O, sevimli aktrisasını tanıyır, ağlına gələn pyeslərdən, obrazlardan danışır və onu qaytarmaqla ovutmağa çalışır.

Tamaşa bu iki şəxsin dialoqları üzərində qurulub. Əslində, bu səfil də sıradan biri deyil. O özü də həyat və sənət sınaqlarında uduzan dramaturqdur...

# "Dünya yaşıl olanda"



Dövlət başçısının sərəncamı ilə Azərbaycanda elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində müxtəlif tədbirlər keçirilir.

Siyəzən rayon Heydər Əliyev Mərkəzində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində məktəblilər üçün debat təlimi keçirilib. Təlim Quba-Xaçmaz RGİİ-nin Siyəzən rayonu üzrə sektoru, Quba-Xaçmaz RTİ-nin rayon üzrə sektoru ilə birgə təşkil olunub. Yeniyetmə və gənclərə ekoloji tərbiyənin aşılanması, ekoloji maarifləndirmə, debat mədəniyyətinin təbliği məqsədi daşıyan təlim zamanı iştirakçılara debatla bağlı müxtəlif mövzular haqqında ətraflı məlumat verilib. Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

***

Şəki Olimpiya İdman Kompleksində Şəki-Zaqatala RMİ, Şəki-Zaqatala RGİİ-nin təşkilatçılığı və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki rayon komitəsinin dəstəyi ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində mədəniyyət işçiləri arasında futzal turniri keçirilib. Turnirdə Şəki Uşaq incəsənət məktəbi, şəhər 2, 3 və 4 nömrəli uşaq musiqi məktəblərinin şagirdləri iştirak ediblər. Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbi turnirin



qalibi olub. Komandalar fəxri fərman, kubok və medallarla təltif ediliblər.

***

Ağstafa rayon MKS-nin Uşaq şöbəsində "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar məktəbli oxucularla birlikdə "Dünya yaşıl olanda" adlı dəyirmi masa keçirilib.

## "Xalqın mədəni sərvəti" layihəsi davam edir

Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi (RMİ) və Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə keçirilən "Xalqın mədəni sərvəti" layihəsi davam edir.

Məqsəd regionlarda Azərbaycan klassik nümunələrini təbliğ etmək, milli-mənəvi dəyərlərimizi, folklor musiqisini müasir gəncliyə çatdırmaqdır.

Layihə çərçivəsində 14-16 fevral tarixlərində dünyaşöhrətli bəstəkar, pedaqoq, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Qara Qarayevin (1918–1982) əsərlərindən ibarət "Musiqi paradı" təşkil edilib.

"Musiqi paradı"nın birinci günü Gəncə şəhər Heydər Əliyev Mərkəzində dahi bəstəkara həsr olunmuş konfrans keçirilib.

Layihənin ideya müəllifi, Gəncə Dövlət Filarmoniyasının direktoru Əməkdar artist Ramil Qasımov onun gerçəkləşməsinə görə Mədəniyyət Nazirliyi və Gəncə-Daşkəsən RMİ-yə təşəkkürünü bildirib. O, layihənin silsilə şəklində əbədiyaşar sənətkarlarımıza həsr olunacağını vurğulayıb.



RMİ-nin sektor müdiri Nurəddin Babazadə çıxış edərək layihənin əhəmiyyətindən söz açıb.

Konfrans zamanı Qara Qarayevin yaradıcılığında opera, balet, simfoniya janrı mövzuları ətrafında məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, bundan öncə "Musiqi paradı" dahi bəstəkar Fikrət Əmirovun yaradıcılıq irsinə həsr edilmişdi.

## Ölkəmizdə 4 700-dən çox bitki növü var

İlk dəfə Azərbaycan dilində "Azərbaycan florası" çoxcildliyi nəşr olunacaq. Bu barədə Elm və Təhsil Nazirliyi Botanika İnstitutunun baş direktoru professor Səyyarə İbadullayeva məlumat verib. Kitabın nəşrə hazırlanması üçün işlərə başlanılıb.

Əvvəllər Azərbaycan florasında 4 200 bitki növü qeydə alınmışdı. Son illərdə aparılmış elmi-tədqiqatlar nəticəsində yeni bitki növləri də tapılıb. Beləliklə, Azərbaycan florasında artıq bitki növlərinin sayı 4 700-dən çoxdur.

On cilddə nəzərdə tutulan nəşrdə qeydə alınmış bütün bitki növləri haqqında məlumatlar veriləcək. Bundan əlavə, Özbəkistan, Çin, Böyük Britaniya, Türkiyə, Macarıstan və digər ölkələrin florası haqqında məlumatlar əldə olunub.

# Şəhidin ev-muzeyində xatirəsi anılıb

Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Hüseyn Arifin Ev-Muzeyinin əməkdaşları Vətən müharibəsi şəhidi Mahmud Əhmədovun xatirəsinə yaradılan muzeyi ziyarət ediblər.

Şəhidin həyatı və döyüş yolundan danışılıb. Qeyd olunub ki, Mahmud Fərman oğlu Əhmədov 1989-cu il avqustun 2-də Ağstafa şəhərində anadan olub. Asif Abdullayev adına Ağstafa şəhər 2 nömrəli tam orta məktəbdə, sonra şəhər Texniki-humanitar təmayüllü liseydə təhsil alıb.

Hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarında qalıb. Nümunəvi xidmətinə görə fəxri fərmanlarla təltif edilib.

2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olan Mahmud Əhmədov Vətən müharibəsi zamanı Tərtər istiqamətində gedən döyüşlərdə yaralanıb. Bərdə rayon xəstəxanasında müalicə alıb. Müalicəsini yarımçıq qoyaraq yenidən döyüşlərə qatılıb. Noyabrın 3-də Laçın rayonu istiqamətində şəhidlik zirvəsinə ucalıb. Ağstafa Şəhidlər xiyabanında torpağa tapşırılıb.



Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

## Kəlbəcər-Laçın yolunda 17 tunel olacaq

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan nəqliyyat infrastrukturu layihələrindən biri də uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yoludur. Hazırda yolun və yol üzərində tunellərin inşası davam etdirilir.



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, yolboyu nəzərdə tutulmuş 17 avtomobil tunelindən 10-da tikinti işləri davam etdirilir. O cümlədən 7 tuneldə qazma işləri artıq yekunlaşıb. Dolaylardan keçən mövcud yoldan istifadə ediləcəyi təqdirdə həddindən artıq sürüşmə zonalarına rast gəlinir. Qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bununla əlaqədar dolayların birbaşa tunellər vasitəsilə keçilməsi qərara alınıb.

Tunellərdə hərəkət hissəsi 11,6 metr enində olacaq. Tunellərin ümumi uzunluğu 13 300 metr təşkil edəcək.

2, 3 və 4 hərəkət zolaqlı olacaq avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə işğaldan azad edilmiş Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və inşası aparılan Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

## Azad edilmiş torpaqlarda nə qədər sahə minadan təmizlənib?

2020-ci ilin Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərdə indiyədək 118 502 hektar (1185 kvadrat kilometr) ərazi minalardan təmizlənib.




Bu barədə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatında bildirilir.

Məlumatda diqqətə çatdırılır ki, bu statistika 10.11.2020-ci il tarixindən 14.02.2024-cü il tarixinədək işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunan qurumlar tərəfindən aparılan ümumi minatəmizləmə fəaliyyətini əks etdirir.

Xatırladaq ki, 2020-ci ilin 44 günlük müharibəsindən sonra erməni işğalından azad edilən ərazilər təxminən 10 min kvadrat kilometr təşkil edir. Buraya 19-20 sentyabr 2023-cü ildə Azərbaycanın suverenliyini tam bərqərar etdiyi ərazilər daxil deyil.

ANAMA-nın məlumatında o da bildirilir ki, ötən müddətdə təmizlənən sahələrdə ümumilikdə 62228 ədəd partlamamış hərbi sursat, 31175 ədəd piyada əleyhinə mina və 18790 ədəd tank əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

Qeyd olunub ki, bu müddət ərzində 345 nəfər minaya düşüb. Onlardan 65 nəfər həlak olub.

# "Aysedora" Akademik Musiqili Teatrın səhnəsinə çıxacaq

## Əfsanəvi amerikalı rəqqasə haqqında monotamaşanın premyerası

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında yəhudi əsilli rus yazıçı-dramaturqu Zinoviy Saqalovun "Aysedoranın üç həyatı" pyesi əsasında monotamaşa hazırlanıb. "Aysedora" monotamaşasının premyerası 21-22 fevralda olacaq.

Məşhur amerikalı rəqqasə Aysedora Dunkanın (1877–1927) keşməkeşli həyatından bəhs edən tamaşanın rejissoru və bədii rəhbəri teatrın baş rejissoru Cavid İmamverdiyevdir.

Səhnə əsərində Aysedoranın dahi rus şairi Sergey Yeseninlə, məşhur teatr xadimi Qordon Kreq və o dövrün başqa görkəmli simaları ilə münasibətləri obrazlı şəkildə göstərilir.

"Sevgi və yaradıcılıq" mövzusunun ön plana çəkildiyi tamaşada Aysedora obrazını teatrın istedadlı solisti Olqa Georgiyeva canlandırır.

Səhnə əsərinin bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, musiqi rəhbəri Əməkdar artist Fəxrəddin Atayev, səhnə tərtibatçısı Əməkdar rəssam Nabat Səmədova, baletmeysteri Əməkdar artist Nigar Şahmuradova, musiqi redaktoru Nigar Süleymanovadır.

Sergey Yeseninin şeirlərinin səsləndirildiyi tamaşada dünyaşöhrətli bəstəkarlar Sergey Raxmaninov, Lüdviq van Bethoven, Frederik Şopen, Entoni Nyuli, Artur Hamilton, Lesli Brikas, Astor Pyazzolla, Corc Gerşvin, İqor Stravinski, Tomas Albinoni, İsak Şvartsın (sözləri Bulat Okudjavaya məxsusdur) və Xalq artisti Sərxan Sərxanın (sözləri Yuri Rubtsova məxsusdur) əsərlərindən istifadə olunub.




Monotamaşa teatrın kiçik səhnəsində nümayiş olunacaq.

Xatırladaq ki, Bakı tamaşaçıları bundan öncə Aysedora Dunkanın həyatı ilə bağlı bir tamaşaya baxıblar. 2011-ci il 7-8 noyabrında ÜNS yaradıcılıq səhnəsində Ukrayna və Rusiyanın Xalq artisti, rejissor Roman Viktyukun quruluşunda "Sergey və Aysedora. Sergey Yesenin ilə Aysedora Dunkanın məhəbbət və ölümünün qeyri-sənədli tarixçəsi" tamaşası göstərilmişdi. Tamaşada Aysedora obrazını Rusiyanın Əməkdar artisti Anna Terexova canlandırmışdı.

1921-ci ildə sovet hökumətinin dəvəti ilə balet dərsləri vermək üçün Moskvaya gələn amerikalı rəqqasə Sergey Yeseninlə sevgi macərası yaşamış, bir müddət sonra onlar evlənmiş, 1923-cü ilin payızında isə ayrılmışdılar.

# "Leyləyin hədiyyəsi" yenidən səhnədə

Fevralın 16-da Azərbaycan Dövlət Kukla Teatrında "Leyləyin hədiyyəsi" tamaşası nümayiş olunacaq.

Özbək xalq nağılı olan "Vur, dəyənək!" əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Əməkdar artist Qurban Məsimov, quruluşçu rəssamı Rəvanə Yaqubovadır.

Özbək mahnı və rəqslərindən də istifadə edilən səhnə əsərində uşaqlara dürüstlük, qətiyyət və mübarizlik aşılanır.

# Sumqayıt teatrında yeni tamaşaya daxili baxış

Sumqayıt Dövlət Dram Teatrında polyak yazıçısı, Nobel mükafatçısı Slavomir Mrojekin "Mühacirlər" əsəri əsasında tamaşa hazırlanır. "-1" adlı səhnə işinə daxili baxış olub.



Əsər insanları elindən, ailəsindən ayırıb qərib edən müharibələr, sosial-siyasi problemlər, nəhayət, insanın özünü özünə mühacir edən bəlalar haqqındadır.

Tamaşanın quruluşçu rejissoru Ümid Abbas, quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı Telman Qəniyevdir.

İki aktyor üçün hazırlanan tamaşada rolları gənc və istedadlı aktyorlar Elay Xasıyev və Kamran Muradlı oynayır.

Müzakirə zamanı teatrın direktoru Samir Şəfiyev tamaşada diqqətçəkən məqamları vurğulayıb, gənc aktyorların yeni oyun tərzini təqdir edib.

Teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov, Əməkdar artistlər Fəranə Musayeva, Sədaqət Nuriyeva, Nadir Xasıyev, İzaməddin Bağırov, Elmira Kərimova, aktyorlar Dağlar Rüstəmov, Vəfa Qurbanova, teatrın baş rəssamı Elşən Sərxanoğlu və başqaları fikirlərini bölüşüblər.

# "Gerçəkləşməyən arzular" – aktrisanın yubiley benefisi




Martın 10-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında aktrisa, Xalq artisti Naibə Allahverdiyevanın 60 illik yubileyi münasibətilə "Gerçəkləşməyən arzular" adlı benefis nümayiş olunacaq.

Əsərin ideyası bir aktrisanın arzusunda olduğu, lakin ifa edə bilmədiyi rolları bir araya gətirib onlardan parçalar ifa etməkdir.

Benefisdə Vilyam Şekspirin "Romeo və Cülyetta", "Hamlet", "Antoni və Kleopatra", Cəfər Cabbarlının "Sevil", Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" pyeslərindən istifadə edilib. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, səhnə tərtibatçısı Zəminə Elbir, musiqi tərtibatçısı Aygül Qurbanova, rejissor assistentləri Fuad Cavadzadə və Günay Qasımovadır.

Səhnə əsərində Xalq artisti Naibə Allahverdiyeva, Əməkdar artistlər Nicat Kazımov, Elnur Bəhramxan, aktyorlar Anar Seyfullayev, Ramil Məmmədov, Elşən Şıxəliyev, Elgün Yəhyayev, Könül Əbilova, Mirsənan Kazımlı, İlhan Sadıqov, Araz Pirimov iştirak edirlər. Bakı Xoreoqrafiya Akademiyası tələbələrinin də iştirak edəcəyi benefisdə rəqslərin quruluşu Əməkdar artist Nailə Məmmədzadəyə məxsusdur.

Qeyd edək ki, indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini aktyorluq ixtisası üzrə bitirən Naibə Allahverdiyeva təyinatla Naxçıvan Dövlət Musiqili Dram Teatrında əmək fəaliyyətinə başlayıb. Naxçıvan səhnəsində bir sıra tamaşalarda rol alıb. 1994-cü ildən – 30 ildir taleyini Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına bağlayıb. Burada Bibi ("Bala bəla sözündəndir" – Ə.Əmirli, Xatun ("Mağara" – A.Həsənzadə), Burla xatın ("Dədəm Qorqud" – (Ə.Dəmirçizadə), Münəvvər ("Mənim ağ göyərçinim" – T.Vəliyeva), Çimnaz ("Çimnaz xanım yuxudadır" – S.Rüstəm), Simuzər ("Sarıköynəklə Valehin nağılı" – İ.Əfəndiyev), Şamama cadu ("Pəri cadu" – Ə.Haqverdiyev) və digər obrazları canlandırıb. Aktrisa həmçinin filmlərdə, teleseriallarda çəkilib.

# Şam işığında musiqi...

## "Mystery Ensemble" salon konsertləri ənənəsini dirçəldir

Xəbər verildiyi kimi, bu günlərdə Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında "Mystery Ensemble" qrupunun konserti böyük maraqla qarşılanıb. Şam işığında keçirilən salon konsertləri dəbində hazırlanan musiqi axşamı "Red Events" agentliyinin təşkilatçılığı ilə ərsəyə gəlib.



"Mystery Ensemble"nin üzvləri tanınmış skripkaçı, Əməkdar artist, P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının məzunu Ceyla Seyidova bir araya gətirib.

Qrup bakılılara və şəhərin qonaqlarına "Harri Potter", "Üzüklərin hökmdarı", "Karib dənizinin quldurları", "Taxt-tac oyunları" və digər filmlərin musiqisindən ibarət orijinal proqram təqdim edib. Ötən dekabrın sonunda, Yeni il ərəfəsində isə ansambl musiqisevərlər qarşısında P.İ.Çaykovskinin əsərləri ilə çıxış etmişdi.

"Mystery Ensemble"ni öz skripkası ilə idarə edən Ceyla Seyidova eyni zamanda filarmoniyanın musiqi kollektivlərindən olan Azərbaycan Dövlət Simli Kvartetinin "birinci skripka" ifaçısıdır. O, AZƏRTAC-a müsahibəsində qrupun yaranması və yaradıcılıq planları barədə də danışıb.

İfaçı bildirib ki, kiçik formatlı musiqi qrupunda "birinci skripka" həm də dirijor çubuğu funksiyasını yerinə yetirir, amma bu həmişə mümkün deyil: "Musiqiçilər mənim işarəmdən sonra notlara baxır, sonra yenidən diqqəti mənə yönəldirdilər. Belə demək mümkünsə, konsertdə gözlərlə təmas, musiqi alətlərinin vəhdəti və təbəssümlə ifa yaddaqalan oldu. Kvintet (beşlik) dirijorsuz da keçinə bilir. Amma hazırkı məqamda elə müasir əsərlər var ki, onları dirijorsuz ifa etmək mümkün deyil. Çünki müəyyən sayda taktlardan sonra səsi tutmaq lazım gəlir, həm də partiyaya bələd olmaq, deyək ki, royalı bilmək tələb olunur. Dirijor isə artıq partituranın bütün partiyalarına baxır, bəstəkarın hər hansı fantaziyasını idarə etməyə çalışır. Müasir musiqidə keçmişdəki bəstəkarlarla müqayisədə müəlliflər daha sərbəst olurlar".

Layihələrə gəlincə, ötən ilin sonunda və bu ilin əvvəlində təqdim edilən proqramlar müəyyən dərəcədə salon konsertlərini dirçəldir: "Konsertlərin təşkilatçılarının təklif etdikləri format öz-özlüyündə maraqlıdır – şam işığında, həm də gözəl bir zalda musiqi əsərləri ilə vəhdət... Belə olan halda ruh yüksəkliyi də təbiidir. Tamaşaçıların münasibəti isə konsertlərə yeni ovqat qatır".

Səhnədə musiqi əsərlərinin elan edilməməsi də tamaşaçılar üçün bir qədər qəribə gələ bilər. Hərçənd hər musiqi nömrəsindən öncə onun elan olunması da musiqinin səslənməsi "mistikası"nı pozur. Üstəlik, sonda konsert proqramı elektron anonslarda təqdim edilir.

# Bakıdakı Rus Evində rəsm sərgisi

Bakıdakı Rus Evində (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi – RİMM) Azərbaycan Rəssamlar İttifaqının üzvü Elina Lobodenkonun fərdi sərgisi açılıb.

Bakı Musiqi Akademiyası (BMA) ilə birgə təşkil edilən tədbirdə rəssamın 24 əsəri təqdim olunub.

Bakıdakı Rus Evi rəhbərinin müavini Dmitri Yeqorov, tədbirin kuratoru, BMA-nın baş müəllimi Alyona İnyakina qonaqların qarşısında çıxış ediblər.

Tədbirin bədii hissəsində Alyona İnyakina, beynəlxalq müsabiqələr laureatları – BMA-nın baş müəllimi Lalə Muxtarova və konsertmeyster Dilarə Kərimova, Azərbaycan Dövlət Xor Kapellasının artistləri Kamilla İmanova, Fərhad Ələkbərov, Elyara Əliyeva, Sankt-Peterburq Dövlət Konservatoriyasının tələbəsi Teymur Kazımovun iştirakı ilə musiqi proqramı təqdim olunub.



Elina Lobodenko Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının məzunudur, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində rəssam işləyir. Əsərlərində abstraksiyaya meyillidir, çəkdiyi rəsmlər hər zaman xətlər, rənglər və həndəsi formalar xaosunda ritmik harmoniya axtarışıdır.

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələr yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçmələrin dərcini davam etdiririk.

## İllərin xronikasından (100)

### 2002-ci il 26 iyun

Prezident Heydər Əliyev Türkiyəyə işgüzar səfəri zamanı Ankaradakı Oran diplomatik şəhərciyində Azərbaycan mədəniyyət mərkəzinin açılış mərasimində iştirak edib.

Ankarada Bakı küçəsinin açılış mərasimində, Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyi üçün tikilmiş binanın təntənəli açılış mərasimində çıxış edib.

### 2002-ci il 24 iyul

Görkəmli müğənni, bəstəkar, Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti Müslüm Maqomayevin anadan olmasının 60 illik yubileyi haqqında sərəncam imzalayıb.

### 2002-ci il 2 avqust

Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) "Azərbaycan kinosu günü"nə həsr olunmuş təntənəli mərasimdə iştirak edib.

*"...Azərbaycan kinematoqrafiyasında çalışan bütün insanları, bütün kinosevərləri ürəkdən təbrik edirəm. Özünü kino sənətinə həsr etmiş bütün insanlara yeni yaradıcılıq uğurları arzu edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan kinosu bundan sonra daha böyük inkişaf yolu ilə gedəcəkdir...".*

Mərasim zamanı Heydər Əliyevə 4-cü Avrasiya Teleforumunun mükafatı və diplomu təqdim edilib.

### 2002-ci il 11 avqust

Naxçıvana səfəri zamanı Uşaq və gənclər parkını seyr edib. Şahbuzda rayon sakinləri qarşısında çıxış edib. Batabat yaylağında olub.

### 2002-ci il 19 avqust

Azərbaycanın görkəmli dirijoru və bəstəkarı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Niyazinin 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

### 2002-ci il 6 sentyabr

Görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevə "İstiqlal" ordenini təqdim edib.

*"...Azərbaycan mədəniyyətinin 40 ildən artıq tarixini Müslüm Maqomayevsiz təsəvvür etmək mümkün deyildir. Doğrudur, bu tarix daha dərinlərə gedir, çünki bizim bugünkü Müslüm Maqomayevin babası görkəmli bəstəkar, musiqiçi idi və dahi Üzeyir Hacıbəyovla birlikdə onlar Azərbaycanda professional musiqi-opera sənətinin baniləri olmuşlar. Müslüm babasının işini layiqincə davam etdirir...*

*Müslüm, Allah sənə nadir səs bəxş etmişdir. Özü də təkcə səs yox, Allah sənə qabiliyyət, istedad bəxş etmişdir və bunlar sənə özünün bu nadir, bənzərsiz səsindən çox bacarıqla bəhrələnməyə və belə görkəmli müğənni, belə görkəmli incəsənət ustası olmağa imkan vermişdir. Mən bu gün burada sənin tərcümeyi-halını, yaxud da yaradıcılıq bioqrafiyanı danışmaq fikrində deyiləm... Ancaq mən sənin, cəmiyyətdə heç kimin tanımadığı gəncin birdən-birə öz səsinlə və öz mahnılarınla hamını heyran etdiyin o illəri xatırlayıram.*

*Mən səninlə bir çox illər ərzində dostluq münasibətlərində olmuş bir adamam, mən də, ailəm də. Bəlkə də mənim rəyim subyektivdir, ona görə yox ki, biz dostuq, məhz ona görə ki, açığını deyəcəyəm, mən sənin mahnılarını çox sevirəm. Mahnıları hamı ifa edir. Lakin eyni bir mahnını müxtəlif ifaçılar müxtəlif cür ifa edirlər. Müslümü bütün digər ifaçılardan fərqləndirən xüsusiyyət budur ki, o hər hansı bir mahnını ifa etməyə başladıqda ona öz aranjimanını, özünün müəyyən çalarlarını verirdi və bu mahnı elə səslənirdi ki, sanki yenicə yazılmışdır....*

*Görünür, tale Müslümün də, mənim də üzümə gülmüşdür ki, 1969-cu ildə mən Azərbaycanın rəhbəri seçiləndə Müslümü himayə etməyə başladım. Belə istedadlı müğənninin himayəyə bir o qədər ehtiyacı yoxdur, bununla belə, bizim yaşadığımız həmin dövrdə, həmin ab-havada bu da lazım idi. Məsələn, mən bunu məhz ona görə edirdim ki, Azərbaycanın görkəmli musiqiçisi, müğənnisi, bəstəkarı, çox mürəkkəb mahnıların ifaçısı irəli çəkilsin və bununla da o, incəsənəti daha da zənginləşdirir və bizim ölkəmizin, Azərbaycanın, xalqımızın başını ucaldırdı. O dövrdə, elə bu gün də mənim vəzifəm hər bir istedadlı adama əlimdən gələn köməyi göstərməkdən ibarət olmuşdur.*

*1972-ci ildə Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirirdik... Xatirimdədir, biz, bütün nümayəndə heyəti böyük bir bərə ilə Neft Daşlarına gedirdik. Mən axıra yaxın gəlib çıxdım, təbii ki, qonaqlardan kimlərin burada olduğu barədə mənə məlumat verdilər. Mənə dedilər ki, siyahı üzrə Müslüm Maqomayevdən savayı qalan hamı bərədədir. Mən hətta bərəni təxminən yarım saat saxlatdırdım. Sonra gəlib mənə dedilər ki, Heydər Əliyev, bilirsinizmi, gözləmək lazım deyil, çünki Tamara Sinyavskaya da yoxdur, nümayəndə heyətində o da vardı. Ona görə də güman ki, onlar olmayacaqlar. Düşündüm, yaxşı, qoy onlar qalsınlar. Onların dostluğu da, bax, o günlərdə başlamışdır. Şadam ki, bundan az sonra o mənə bildirdi ki, evlənmişdir. Mən onları Bakıya dəvət etdim, biz burada onların evlənməsini mənim ailəmdə və bəzi həmkarlarımın iştirakı ilə məhdud bir dairədə qeyd etdik.*

*Tamara Sinyavskaya görkəmli şəxsiyyətdir, rus müğənnisidir, Böyük Teatrın solistidir, onun zəngin yaradıcılığı var... Ona görə də indi biz Müslümün böyük yaradıcılıq yolundan, böyük xidmətlərindən, musiqi sahəsində görkəmli fəaliyyətindən, ifaçılıq sənətindən danışarkən mütləq Tamara haqqında da danışmalıyıq, çünki yaradıcılıqları artıq onların ailəsinin yaradıcılığıdır.*

*Müslümün incəsənətdə hər şeyi var... Biz Müslümün səsini bundan sonra da həmişə eşidəcəyik. Elə bir səs ki, o, heç kimdə yoxdur...".*

### 2002-ci il 8 sentyabr

Müslüm Maqomayevin şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitq söyləyib.

### 2002-ci il 11 sentyabr

Müslüm Maqomayevə və Tamara Sinyavskayaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№13 (2078)
16 fevral 2024
www.medeniyyet.az

# "Heydər Əliyevin Mərkəzi Komitə Bürosunun qərarındakı imzası məni çox bəlalardan xilas etdi"

Müsahibimiz görkəmli tarixçi-alim, AMEA-nın müşaviri, Bakı Dövlət Universiteti Qədim dünya və Orta əsrlər tarixi kafedrasının müdiri Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Yaqub Mahmudovdur.



*– Yaqub müəllim, 85 illik yubileyinizi təbrik edirik. Ömrünüzün neçə ilini elm və təhsilə həsr etmisiniz?*

– Təbrikinizə görə çox sağ olun. Məni yada saldığınız üçün qəzetinizə dərin minnətdarlığımı bildirirəm. Elm və təhsil həyatımın mayasını təşkil edir. Ömrümün 60 ildən çoxunu elm və təhsilə həsr etmişəm. İndi də bu sahədə fəaliyyət göstərirəm. 1966-cı ildə "Ağqoyunlu dövlətinin Venesiya ilə qarşılıqlı əlaqələri" mövzusunda namizədlik (fəlsəfə doktorluğu – red.) dissertasiyası müdafiə etdim. Yadımdadır, müdafiə 4 saata qədər çəkdi. Mənə yekdilliklə birbaşa tarix elmləri doktoru elmi dərəcəsinin verilməsi barədə qərar qəbul olundu. Bununla da həyatımın heç zaman məndən ayrılmayan ağır sınaqlar dövrü başlandı. O zaman mənim hələ 27 yaşım tamam olmamışdı. Elmlər doktoru elmi dərəcəsi verilən günün səhərisi sanki bütün dünya mənə qarşı çevrildi. Hətta məni dünən əzizləyən müəllimlərimin də əksəriyyəti məndən üz döndərdi. Dedilər ki, get, etiraz et, sən hələ bu ada layiq deyilsən. Məsələni rektorluq səviyyəsinə qaldırdılar. 6 aydan sonra, nəhayət, mənə birbaşa elmlər doktoru elmi dərəcəsi verilməsi barədə qərarın ləğv edilməsinə nail oldular. Əla qiymətlərlə qurtardığım universitetdə (BDU – red.) mənə iş də vermədilər. Çarəsiz qaldım.

*– İnsanın həyatında müəyyən bir dönüm məqamları mütləq olur. Təbii ki, Sizin üçün də vəziyyət belə davam edə bilməzdi...*

– Taleyim məni böyük şairimiz Rəsul Rza ilə görüşdürdü. Rəsul müəllim o zaman yenicə fəaliyyətə başlayan "Azərbaycan Ensiklopediyası"nın (Azərbaycan Sovet Ensiklopediyası (ASE) – red.) baş redaktoru idi. Bu gün də çox qürurluyam ki, Rəsul Rza kimi böyük şəxsiyyətlə görüşmək və on ilədək onunla çiyin-çiyinə "özümüzdən olan" dönüklərlə barışmaz ideya mübarizəsi aparmaq mənə qismət oldu. Moskvanın və İrəvanın göstərişi ilə özlərinə dolanışıq quran bəzi "alimlərimizin" xidmətləri sayəsində "yaşıl ensiklopediyamız" (ASE-nin "Azərbaycan" xüsusi cildi – red.) işıq üzü görmədi.

Ensiklopediyadan sonra Pedaqoji İnstitutda fəaliyyətə başladım. Bütün bu müddət ərzində tələbəlik illərində dekanım olmuş və həmişə mənə arxa durmuş sevimli müəllimim professor Məlik Orucov dəfələrlə mənim arxamca instituta gəldi ki, yenidən universitetə qayıdım. Nəhayət, BDU-ya qayıtdım. 1981-ci ildən BDU-da çalışıram və Tarix fakültəsində 14 il dekan olmuşam.

2004-cü ildən AMEA-da işə başladım. Tarix İnstitutunda 17 il direktor vəzifəsində çalışmışam. Son 20 ildə Prezident İlham Əliyevin çağırışlarına cavab olaraq ikicildlik "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası", ilk "Azərbaycan tarixi atlası", Qarabağın, Naxçıvanın, İrəvan xanlığının, xalqımıza qarşı soyqırımlarının, itirilmiş torpaqlarımızın tarixinə dair onlarla tədqiqatlar, sənədli filmlər işıq üzü gördü və bu tədqiqatlar müxtəlif dillərə tərcümə edilərək dünyanın aparıcı ölkələrində yayıldı. Bu elmi problemlər ətrafında yazılan silsilə əsərlərə görə Prezidentimizin müvafiq sərəncamı ilə 13 nəfər tarixçi-alim Dövlət mükafatına layiq görüldü.

*– Ulu öndər Heydər Əliyev həmişə Sizin elmi fəaliyyətinizi yüksək qiymətləndirib.*

– Ulu öndərimizi tələbəlik illərimdən tanıyırdım. Mən I kursda oxuyanda o, Tarix fakültəsində təhsilini başa vururdu. Onun Dövlət Təhlükəsizliyi Komitəsində fəaliyyət göstərdiyi dövrdə sovet rejiminə qarşı yazılı intibahnamə ilə çıxış etmiş bir tarixçi tələbəni çox çətin vəziyyətdə necə xilas etməsinin canlı şahidiyəm. Bu böyük şəxsiyyət haqqında xatirələrimi ona həsr etdiyim əsərlərimdə vermişəm. O, həmişə dar ayaqda mənim dadıma çatıb.

1999-cu ildə 60 yaşım tamam olurdu. Haqqımda səlahiyyətli struktura müraciət olunmuşdu. Lakin müraciət cavabsız qalmışdı. Doğum günümdən 3 gün sonra zəng gəldi ki, axşam saat 8-də Azərbaycan Televiziyasının "Xəbərlər" buraxılışına bax. Televizoru açdım, gördüm ki, Prezident Heydər Əliyevin fərmanı oxunur: "Azərbaycanda tarix elminin inkişafındakı xidmətlərinə və respublikanın ictimai-siyasi həyatında fəal iştirakına görə Yaqub Mikayıl oğlu Mahmudov "Şöhrət" ordeni ilə təltif edilsin". Bir daha əmin oldum ki, Heydər Əliyev heç zaman Vətən, xalq üçün çəkilən əməyi qarşılıqsız qoymur. Təltif mərasimində çıxış elədim. Məni sınmağa qoymadığına, təzyiqlərə rəğmən qoruduğuna görə təxminən 18 səhifəlik "Vətəndaş etirafı" yazıb göndərdim.

Mən orta məktəblərin 5-ci sinif şagirdləri üçün "Ata yurdu" adlı dərslik yazmışam. Bu kitabın üzərində bütöv Azərbaycanın xəritəsini vermişəm. Bununla bağlı respublikamıza etirazlar bildirildi, notalar verildi. Amma Heydər Əliyev bütün bunlara rəğmən məni müdafiə elədi. 2002-ci ildə Şəkidə çıxışı zamanı məni təqib edən çox təsirli qüvvələrə cavab olaraq bu sözləri dedi: "Şəki böyük alimlər də yetiribdir. Onlardan biri böyük tarixçi, professor Yaqub Mahmudov – o, indi buradadır". O zaman Ulu öndərin bu qiyməti mənim üçün son dərəcə böyük əhəmiyyətə malik idi. Çünki İran dəfələrlə nota verirdi, Təhsil Nazirliyinə etirazlar gəlirdi, hətta kitabı gətirib Prezidentin stolunun üstünə qoyurdular. Heydər Əliyev isə tariximizi dərindən bildiyi üçün bütün bunlara əhəmiyyət vermədi, məni müdafiə elədi.

*– Uzun illər – sovet dövründə tariximiz obyektiv öyrənilməyib, daha çox saxtalaşdırılıb. Elmi-tədqiqata başladığınız ilk vaxtlarda bunu nə dərəcədə hiss edirdiniz?*

– Sualınıza cavab mənim həyatımla bağlıdır. Xalq arasında "Qaçaq Qara Mikayıl" kimi tanınan atam Mikayıl Mahmud oğlu 1918-ci ildə Şəkinin Səbətli kəndində möhkəmlənmiş daşnak yuvasının darmadağın olunmasında fəal iştirak edib. 1930-cu ildə baş vermiş Göynük üsyanının birbaşa iştirakçılarından biri olub. NKVD (sonralar KQB adlanan qurum da o vaxt onun tərkibində idi) tərəfindən təqib olunan atam bütün ailəmizlə birlikdə doğma Baş Göynük kəndini tərk etdi. Qax, Zaqatala, Balakən rayonlarının Qanıxboyu kəndlərində təqiblərdən qorunduq. Tələbəlik illəri məni tariximizin həqiqət dünyasına daha yaxından qovuşdurdu. Görkəmli tarixçimiz, professor Ədhəm Şahmalıyevin rəhbərliyi ilə Ağqoyunlu dövlətinin tarixinə dair yazdığım dissertasiya işi və bundan sonra davamlı olaraq qarşıma çıxarılan maneələr tamamilə gözümü açdı. Apardığım ilk tədqiqat işləri nəticəsində tam əmin oldum ki, çar Rusiyasının amansız müstəmləkə siyasəti sovet-bolşevik rejimi dövründə daha qəddarcasına davam etdirilib. Əlifbamız dəfələrlə dəyişdirilib. Xalqımıza qarşı soyqırımları həyata keçirilib. Ziyalılarımız repressiya olunub və soydaşlarımız Qərbi Azərbaycandan – öz ata-baba yurdlarından sürgün edilib. Bundan başqa, mərkəzin – metropoliyanın göstərişi ilə Azərbaycanın saxtalaşdırılmış müstəmləkə tarixi "yaradıldı" və bu tarixi Sankt-Peterburq və Moskvada yuva salmış erməni alimləri yazdılar. Həmin dövrdə beynəlxalq müqavilələr və xəritələr saxtalaşdırılaraq yazılırdı ki, guya Cənubi Qafqazın aborigen, yəni ən qədim yerli əhalisi biz deyilik, çarizmin buraya köçürtdüyü ermənilərdir, biz isə Altaylardan köçüb gəlmişik. Biz ensiklopediyaçılar ötən əsrin 60–70-ci illərində bu saxtakarlıqlara qarşı mübarizə apararaq sərhədlərimiz, tarixi torpaqlarımız, xəritələrimizlə bağlı məsələlər qaldırdıq. O zaman Azərbaycanın öz xəritə fabriki yox idi. SSRİ-nin xəritə fabriklərinin, demək olar ki, əksəriyyəti ermənilərin inhisarında idi. Mən ASE-nin baş redaktoru Rəsul Rzanın yaxından köməyi ilə Azərbaycanın ilk tarix xəritələrini Kiyev Xəritə Fabrikində nəşr etdirdim. Xəritələrin nəşrindən sonra – 1972-ci ildə ASE tərəfindən "Azərbaycan SSR xəritələri" atlası çap olundu. Belə bir atlasın işıq üzü görməsi və həmin atlasa ilk dəfə Azərbaycan tarixi xəritələrinin daxil edilməsi elmimizin çox mühüm uğuru idi.

*– Ensiklopedik nəşrlərin hazırlanması sahəsində təcrübəniz olub. Müstəqillik dövründə də "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası"nın yaradılmasına rəhbərlik Sizə həvalə edildi.*

– "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası"nın yaradılması təşəbbüsü Heydər Əliyevə məxsusdur. Ulu öndər müalicə üçün sonuncu səfərə çıxarkən Xalq Cümhuriyyəti haqqında bircildlik ensiklopedik lüğət hazırlamaq barədə tapşırıq vermiş və bu işin mənə həvalə olunmasını məsləhət görmüşdü. Tarix fakültəsinin dekanı olaraq AMEA-nın Tarix İnstitutunun mütəxəssislərini cəlb edib ikicildlik Cümhuriyyət ensiklopediyasını hazırladıq. Çox şadam ki, işi başa çatdırdıq və ensiklopediya Prezident İlham Əliyevin göstərişi ilə çap olundu. Ensiklopediyanın sonuncu nəşri 2014-cü ildə oldu. İlham Əliyev onun bütün mətnləri ilə tanış oldu və bununla Xalq Cümhuriyyətinin tarixinə möhtəşəm abidə qoyuldu.

### "Rəsul Rza XI Qırmızı Ordunun Gəncədəki qəddarlığı haqqında mənə elə faktlar danışmışdı ki..."

*– Bəs sovet dövründə Cümhuriyyət tarixinin öyrənilməsi ilə bağlı hansısa addımlar atmışdınızmı?*

– Dediyim kimi, 1966–1975-ci illərdə "Azərbaycan Sovet Ensiklopediyası"nda işləmişəm. Baş redaktor Rəsul Rza 1918-ci ilin mart soyqırımını, Xalq Cümhuriyyətinin mütərəqqi tarixi rolunu bütün incəliklərinə qədər bilirdi. Cümhuriyyət xadimlərinə dərin ehtiram bəsləyirdi. XI Qırmızı Ordunun vəhşilikləri barədə, xüsusilə 1920-ci ilin mayında Gəncə üsyançılarına tutulan divan haqqında mənə elə söhbətlər etmişdi ki, indi də həmin söhbətlər yadıma düşəndə canım gizildəyir. O zaman hətta arxivdən Stepan Şaumyanın Androniki Bakıya çağıran teleqramını da tapıb gətirtmişdik.

Biz o zaman özümüzdə cəsarət taparaq Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı, Cümhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi, 1920-ci ilin aprel işğalı kimi bir çox məsələləri "yaşıl ensiklopediya"ya daxil etmişdik. Amma anti-Azərbaycan qüvvələri, o cümlədən daşnak cəlladı Şaumyanın oğlu – "Böyük Sovet Ensiklopediyası" baş redaktorunun müavini Levon Şaumyan və daxilimizdən onlara donos ötürənlər "yaşıl ensiklopediya"nın işıq üzü görməsinin qarşısını aldılar. Həmin illərdə anti-Azərbaycan qüvvələri ensiklopediyaçılara "pantürkist", "panislamist", "millətçi", "Sovet hakimiyyətinin və Rusiyanın düşmənləri" damğası vurmağa çalışdı, lakin məqsədlərinə çata bilmədilər.



Məhz Heydər Əliyevin sayəsində həm ensiklopediyaçılar, həm də ziyalıların böyük bir qrupu, o cümlədən də mən, nəinki KQB-nin təqiblərinə düçar olmadıq, hətta o dövr üçün dəhşətli bir cəza sayılan partiya cəzasından da yaxa qurtara bildik. Belə bir ağır vaxtda – 1971-ci ilin martında mən ensiklopediyanın elmi işlər üzrə baş redaktor müavini vəzifəsinə təsdiq olundum. Bu barədə Mərkəzi Komitə Bürosunun qərarının altında Heydər Əliyevin imzasının olması məni çox bəlalardan xilas etdi.

*– Yaqub müəllim, tarixlə mədəniyyət hər zaman paralel öyrənilir. Araşdırdığınız dövrlərin mədəniyyətimizlə bağlı mənzərəsi necə görünür?*

– Hər bir millətin, hər bir dövlətin mənəvi dəyərlərinin əsas meyarlarından biri onun mədəni inkişaf göstəriciləridir. Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti, o cümlədən memarlıq, dekorativ-tətbiqi sənət, xalçaçılıq, musiqi, miniatür incilərindən ibarət milli incəsənət şedevrləri miz dünya mədəniyyəti xəzinəsində layiqli yer tutur.

Mən uzun illər ərzində mədəni irsimizi də araşdırmışam. Qürurluyam ki, "Azərbaycan tarixi: Erkən intibah dövrü (IX əsrin II yarısı – XIII əsrin əvvəlləri)" əsərinin müəllifiyəm. Rəhbərliyimlə yazılmış və həmmüəllifi olduğum "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri" və "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" fundamental tədqiqatlarda tarixi proseslərlə yanaşı, qədim mədəniyyətimizin işıqlandırılmasına da lazımınca diqqət yetirilib.

*– Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Vətən müharibəsini yaşadıq. Ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Bir tarixçi-alim, ictimai xadim kimi bu prosesləri necə qiymətləndirirsiniz?*

– 44 günlük Vətən müharibəsindəki böyük tarixi Qələbəmiz nəticəsində Cənubi Qafqazın tarixi inkişafı kökündən dəyişdi. Bütün regionun beynəlxalq münasibətlər tarixində yeni reallıqlar yarandı. İlk növbədə, "böyük Ermənistan" xülyası və erməni hərbi mifi darmadağın edildi. Ən əsası isə, biz erməni işğalçılarını torpaqlarımızdan qovub çıxararaq ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdik. Bunun ardınca Xankəndi şəhərində bayrağımız ucaldıldı və dünya ermənilərinin "Artsax" layihəsi tarixin tullantısına çevrildi. Bütün bunlar Azərbaycanın son 200 illik tarixində ilk dəfə reallaşdı. Bunu böyük güc mərkəzlərinə qarşı siyasi-diplomatik mübarizədə və döyüş cəbhəsində öz xalqına və şanlı Ordumuza başçılıq edən Müzəffər Ali Baş Komandan İlham Əliyev həyata keçirdi və adını tariximizə qalib sərkərdə kimi yazdı.

### "Qərbi Azərbaycan məsələsi Prezidentimizin dünya şahmat taxtasında şah gedişidir"

*– Regionda yeni reallıq yarandığını qeyd etdiniz. Bu reallığı Qərbi Azərbaycan məsələsinə münasibətdə necə səciyyələndirirsiniz?*

– Qərbi Azərbaycan məsələsi erməni qəsbkarlarına qarşı mübarizədə Azərbaycan Prezidentinin dünya şahmat taxtası üzərində şah gedişidir. Son vaxtlar Qərbi Zəngəzurdan tutmuş Vedibasardan, Zəngibasardan, İrəvandan, Dərələyəzdən, Göyçədən qovulmuş azərbaycanlıların da öz doğma torpaqlarına qayıtması məsələsi prinsipial şəkildə qaldırılır və bunun üzərində ciddi iş gedir. Prezidentimiz Qərbi Azərbaycanda boş qalmış, xarabazara çevrilmiş yurd yerlərimizə qayıdışın təmin edilməsi ilə bağlı məsələləri tarixi vəzifə kimi qarşıya qoyub. Qərbi Azərbaycan İcması təmsilçiləri ilə görüşdə bu məsələ tarixi-strateji vəzifə kimi qətiləşdirildi.

Prezidentimiz konkret tarixi faktlar əsasında bütün dünyaya bəyan edir ki, erməni vandalizmi nəticəsində Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimiz yerlə yeksan edilib. Soydaşlarımızın tarixi mirası sonadək məhv edilmək üzrədir. Lakin bütün bunlar əbəsdir, ilk mənbələr, o cümlədən arxiv sənədləri, xəritələr düşmənin əleyhinə işləyir. Bütün əski xəritələrdə həmin regionda Azərbaycan tarixi izini tamamilə aydın görmək mümkündür. Dövlətimizin başçısı da "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir", – deyə bildirib. Qalib Ali Baş Komandanın bu məntiqi və qətiyyəti bizim tezliklə o torpaqlara da qayıdacağımızı labüd edir.

*– Qarşıda hansı tədqiqat planlarınız var?*

– Planlarım çoxdur. Lakin böyük tarixi şəxsiyyətlərimiz Nadir şah Əfşar, Ağaməhəmməd şah Qacar və Nəriman Nərimanovla bağlı indiyədək doğru-düzgün qiymətləndirilməmiş məsələlərə bir sıra tədqiqatlar həsr etmək niyyətindəyəm. Doğrusu, məni ümumdünya tarixinin dahi sərkərdəsi Nadir şah Əfşarın xalqımız qarşısındakı böyük tarixi xidmətləri daha çox düşündürür...

*– Maraqlı müsahibəyə görə təşəkkür edirik.*

**Nurəddin Məmmədli**

---

**Həbib bəy Mahmudbəyov – 160**

# Yorulmaz maarifçi və ictimai xadim

XIX əsin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milli maarifçi fikrin oyanışı və formalaşması istiqamətində önəmli addımlar atılıb. Həmin dövrdə maarif və mədəniyyətin inkişafı sahəsində xidmətləri olmuş ziyalılarımızdan biri də Həbib bəy Mahmudbəyovdur. Bu il böyük maarif xadiminin anadan olmasının 160 illiyidir.

Həbib bəy Hacı İbrahimxəlil bəy oğlu Mahmudbəyov 1864-cü ildə Şamaxı şəhərində dünyaya göz açıb. Əvvəlcə məhəllə molla məktəbinə gedib, sonra şəhər məktəbində təhsilini davam etdirib. 1872-ci il zəlzələsində şəhər məktəbinin binası dağılır. Həbib bəy Bakıya gəlir və realnı məktəbə qəbul olunur. Bu məktəbdə altıncı sinfədək oxuyur. 1883-cü ildə Sultanməcid Qənizadə ilə birlikdə Tiflis şəhərinə gedir. Hər ikisi Aleksandrov Müəllimlər İnstitutuna daxil olurlar. Təhsillərini başa vurub vətənə dönürlər. Onlar ölkəmizdə maarifçilik hərəkatına öz töhfələrini vermək üçün səylərini birləşdirirlər. 1887-ci ildə Bakıda ilk özəl rus-müsəlman məktəbini açırlar. Bu, o dövr üçün böyük mədəni hadisə idi.

Böyük maarifçi, pedaqoq Firidun bəy Köçərli vaxtilə yazırdı: "Bu vaxtlarda (1891) Qafqazda maarif müdiri olan Yanovski Sultanməcid Qənizadə ilə Həbib bəy Mahmudbəyovun təzə qayda ilə açdıqları məktəbləri ziyarət edib. Həm şagirdlərin oxumasından, həm də cavan müəllimlərin səy və hümmətindən artıq dərəcədə razı qalıb. O, sonralar bu məktəbi hər yerdə vəsf edib".

Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi Nərmin Bağırova araşdırmasında yazır ki, 1891-ci ildə Bakı camaatından 150 nəfər şəhər dumasına ərizə ilə müraciət edərək bu məktəblərin sayının artırılması və dövlət xərcinə keçirilməsi tələbini irəli sürürlər. Şəhər camaatının tələbi əsasında həmin il dövlət hesabına Rus-Azərbaycan məktəbinin bazası əsasında iki yeni məktəb açılır. Birinci məktəbə 35, ikinci məktəbə isə 45 şagird qəbul olunur. H.Mahmudbəyov birinci, S.Qənizadə isə ikinci məktəbin müdiri təyin olunur...



Sonralar Rus-Azərbaycan məktəbində S.S.Axundov, A.Şaiq, Ə.Cəfərov, A.Atakişiyev, Həmidə Behbudova kimi müəllimlər dərs deyirlər. Bu təhsil ocaqlarından şagirdlərin hərtərəfli inkişafına diqqət yetirilir, onların istedad və bacarıqlarının üzə çıxarılması üçün addımlar atılırdı. Bu mənada folklorşünas Əbülqasım Hüseynzadənin bir xatirəsi maraq doğurur: "Həbib bəy Mahmudbəyovu 15 yaşımdan tanıyıram. Mən o vaxt "rus-tatar" məktəbində oxuyurdum. Məktəbin direktoru Həbib bəy Mahmudbəyov idi. O, üzügülər, itibaxışlı və nurlu bir şəxs idi. Seyid Hüseynlə oxuyurdum. Bir gün Həbib bəyin təşəbbüsü ilə məktəbdə yaradılmış teatr truppasına üzv yazıldıq. Mən ədəbiyyata və teatra çox həvəs göstərirdim. Bunu Həbib bəy Mahmudbəyov hiss etmişdi. Ona görə də mənə müxtəlif rollar verirdi".

1914-cü ildə Həbib bəy Mahmudbəyovun məktəbinin 25 illik yubileyi qeyd olunur. Bu münasibətlə o, hökumət tərəfindən təşəkkürnamə ilə təltif edilir. Eyni zamanda görkəmli maarifçi Haşım bəy Vəzirov tərəfindən "Bakıdakı rusi-müsəlmani məktəblərin iyirmi beş illik yubileyi münasibətilə" adlı kitabça da nəşr etdirilir.

Həbib bəy geniş ictimai maarifçilik fəaliyyəti ilə məşğul olurdu. O, Bakı Şəhər Dumasında məktəb komissiyasının üzvü kimi Azərbaycan müəllimlərinin I qurultayının (1906) keçirilməsində yaxından iştirak etmişdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Həbib bəy Mahmudbəyov respublikada xalq təhsilinin inkişafında yeni istiqamətlərin işlənib hazırlanmasında fəallıq göstərir. Qabaqcıl maarif xadimləri F.Rzabəyli və Ə.Cəfərovla birlikdə Azərbaycan Ali Pedaqoji İnstitutunun yaradılmasında da köməyini əsirgəmir. Həmin institutda uzun illər direktor müavini olur, eyni zamanda rus dili və ədəbiyyatı tədris edir. Təhsilin hərtərəfli inkişafı üçün gecə kurslarının da fəaliyyət göstərməsinə nail olur.

Həbib bəy təkcə məktəb işi ilə məşğul olmurdu, o, maarifçiliyi həm də mədəniyyət, sənət faktı kimi qəbul edirdi. Azərbaycanda realist aktyor məktəbinin banisi, tanınmış teatr xadimi Cahangir Zeynalovla birgə tamaşa hazırlamaq istəyir. Əsas heyəti müəyyən etsələr də, epizodik rollarda oynamağa aktyor tapmırlar. O, epizodik rollara öz şagirdlərini cəlb edir. Bu şagirdlər sırasında sonradan görkəmli səhnə fədaisi olacaq Hüseyn Xələfov (Ərəblinski) də vardı. Hüseyn özünün ilk məşqlərini Cahangir Zeynalovun evində edir. Ancaq Hüseyn Ərəblinski özünün ilk rolunu oynaya bilmir. Səhnədə çaşan Hüseyn susmağa məcbur olur. Ancaq bu, tamaşanın ümumi tempini pozmur. Çünki Hüseynin rolu tamaşada, demək olar, nəzərə çarpmırmış. Həbib bəy ona ürək-dirək verir, səhnədən, sənətdən soyumasına imkan yaratmır.

Böyük maarifçi, ictimai xadim Həbib bəy Mahmudbəyov 1928-ci ildə Bakıda vəfat edib. Ölümündən sonra adı əbədiləşdirilir. Bakıdakı 2 nömrəli Texniki-humanitar elmlər liseyinə onun adı verilir.

**Savalan Fərəcov**



# 14 yaşından səhnədə

## Xalq artisti Rövşən Hüseynov üçün teatr bir həyat, yaşam tərzidir

Teatr bir möcüzədir. Bu möcüzəni aktyorlar, rejissorlar, rəssamlar birlikdə səhnə adlı bir dünyada yaradırlar. Səhnədə baş verənləri izləyən insan sanki sirli-sehrli aləmə düşür. Ədəbi qəhrəman kimi bir zaman kitablardan oxuduğu obrazları canlı görür. Yaxşı təqdim edilən tamaşada isə seyrçinin özü də hadisələrin canlı şahidinə, bəzən hətta iştirakçısına çevrilir. Amma unutmaq olmaz ki, obrazı səhnəyə gətirən, onu canlandıran, həyat verən aktyordur. Səhnədə başqalaşır, obrazların daxili aləmini açır, hiss və duyğularını tamaşaçıya çatdırır.

Əslində, teatr səhnəsində hər şey şərtidir, burda evlər kartondan, ağaclar parçadan, əşyalar butafordan ibarətdir. Günəş bəzən yerin altından çıxır, buludlar müşəmbədən olur... Burada yeganə canlı aktyordur və onun ürəyi var. Bir bu ürək bütün süni şərtilikləri cana gətirir.

O da aktyordur. Özü də 56 ildir, yəni 1968-ci ilin dekabr ayından Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında işləyir. Təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda sənətsevərlərin yaxşı tanıdığı aktyordan – bu il 70 illiyini qeyd edən Xalq artisti Rövşən Hüseynovdan danışıram. Yəqin ki, onu tanıyan oxucunun üzündə istər-istəməz təbəssüm yarandı. Bu da təbiidir. Çünki onu uzun illərdir daha çox komediya aktyoru kimi tanıyırıq.

Rövşən Hüseynov 1954-cü il fevralın 6-da Naxçıvanda sənətkar ailəsində doğulub. Anası Xalq artisti, "Şöhrət" ordenli Sofya Hüseynova, atası uzun illər Naxçıvan teatrında inzibati işlərdə çalışan Maqsud Hüseynov balaca Rövşəni uşaqlıqdan sərbəst böyüdüblər. Bu qayğısız uşaqlıq illərini daha çox teatrın səhnəsində keçirən və elə burada sənətkarların əhatəsində böyüyən gənc Rövşən sonradan elə valideynləri kimi ömrünü də böyük səhnəyə bağlayır.

Uşaqlıq illərində teatrın səhnəsində kiçik epizod rollarda çıxış edir. 14 yaşından teatrın truppasına aktyor kimi qəbul olunur. Onun istedadı tanınmış səhnə xadimlərinin diqqətindən yayınmır. Rövşən Hüseynovun yeniyetməlik illəri Naxçıvan teatrının inkişaf dövrünə təsadüf edir. II Dünya müharibəsindən sonra "özünə gələn" teatr sahəsi, ölkənin hər yerində olduğu kimi, Naxçıvanda da tərəqqi edirdi. Təcrübəli yaradıcı heyət bir-birindən maraqlı səhnə əsərləri ilə tamaşaçıların qarşısına çıxır, sənətsevərlərin teatra marağını artırırdı. Həmin dövrdə rejissorlar Baxşı Qələndərli, Vəli Babayev, İbrahim Həmzəyevin quruluş verdiyi tamaşalarda Rövşənin də özünəməxsus rollar silsiləsi başlayır. O zaman teatra yeni rejissor təyin olunan Vəli Babayev hazırladığı tamaşalarda ona da baş rollar verir və peşəkar aktyor kimi yetişməsi üçün səylərini əsirgəmirdi.

1968-ci ildə S.S.Axundovun "Laçın yuvası" tamaşasındakı Səfər obrazından bu yaxınlarda gənc rejissor Mir Qabil Əkbərovun quruluşunda J.B.Molyerin "Skapenin kələkləri" tamaşasındakı Arqant roluna qədər 200-dək müxtəlifxarakterli qəhrəman səhnədə Rövşən Hüseynovun ifası ilə tamaşaçıya təqdim edilib. Maraqlı hal odur ki, canlandırdığı rolların əksəriyyəti baş qəhrəmandır. Hətta epizodik rolda belə Xalq artistinin imzası digər həmkarlarından seçilir. Bu obrazların hər biri özünəməxsus xarakter cizgiləri, maraqlı ifa tərzi ilə bir-birini təkrar etmədən yaradılıb. Çoxu da komediya qəhrəmanlarıdır. Hətta faciə belə olsa, Rövşən Hüseynov mütləq ona bir qədər komediya elementi qatacaq. Çünki komediya, gülüş, əslində, qəhrəmanın cəmiyyətdəki çatışmazlıqlara üsyanıdır və tamaşaçını daha çox düşündürür.

Rövşən Hüseynov çox ciddi aktyordur. Onun oynadığı komik obrazlar həm də ciddiliyi ilə seçilir. Hər biri özünəməxsus şəkildə aktyor ifası ilə tamaşaçının yaddaşında iz buraxır. Bəzən aktyorların yaradıcılığını komik və ya dramatik amplualara bölürlər. Rövşən Hüseynov əsl aktyordur, yəni onun üçün obraz, xarakter var. Qəhrəmanın düşdüyü vəziyyətin reallığı və insan taleyi onu narahat edir. Bir də hər şeyi olduğu kimi yaşamaq. Komediya və ya faciə isə aktyorun yaratdığı obrazın düşdüyü mühitin, situasiyanın diktəsi ilə yaranır. Çünki sənətkar obrazın düşdüyü vəziyyəti özününküləşdirərək yaşaya bilir.





Rövşən Hüseynovun yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilib. Hətta o, "Əməkdar artist" fəxri adını alması ilə bağlı xəbəri 1987-ci ildə qiyabi təhsil aldığı indiki Mədəniyyət və İncəsənət Universitetində dövlət imtahanı verən zaman müəllimlərindən eşidir. 2008-ci ildə isə "Xalq artisti" fəxri adına layiq görülür.

Etiraf edək ki, Rövşən Hüseynov tərəf-müqabili ilə oyunu sevən, öz həmkarlarına səhnədə istənilən vəziyyətdə yaxşı ifa üçün şərait yaradan çox az aktyordan biridir. Buna görə də gənclər həvəslə onun oynadığı tamaşalarda rol almağa can atıb. O ki qaldı, tərəf-müqabili ola. Hətta bu gün yeganə aktyordur ki, Naxçıvan teatrında onun sənət məktəbini davam etdirən tələbələri var.

Üstün cəhətlərindən biri çox gözəl musiqi duyumunun olması, digəri isə gözəl səhnə plastikasıdır. Bu xüsusiyyətlərini hətta vaxtilə Xalq artistləri Afaq Bəşirqızı və rəhmətlik Yaşar Nuri onunla Naxçıvan teatrında bir səhnəni bölüşəndən sonra səmimi şəkildə etiraf ediblər. Bir çox səhnə fədailəri kimi Rövşən müəllimin də ürəyi həyat verdiyi müxtəlifxarakterli obrazların faciəsinə biganə qala bilmədi. Nəticədə ürəyindən ağır əməliyyat olundu. Həkimlər səhnədə çevik hərəkət etməyi ona qadağan ediblər.

Amma taleyini teatra bağlayan insanın ürəyi səhnə ilə döyünürsə, ondan ayrıla bilərmi? Ona görə də Rövşən müəllim son illər özünü rejissor kimi sınaqdan keçirdi. Nəticədə Həsən Elsevərin "Koroğlu nəsli", Viktor Qubarevin "Sehrli yaylıq", İsgəndər Coşqunun "Ana laylası" kimi uşaq və yeniyetmələr üçün hazırlanan maraqlı, dinamik tamaşalar yarandı. Müzəffər Nəsirlinin "Qönçəbəyim nəğməsi", İlyas Əfəndiyevin "Hökmdar və qızı", Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan", İslam Səfərlinin "Göz həkimi" əsərləri onun rejissor fantaziyasından keçərək tamaşaçıya təqdim edilib.

Onu da qeyd etmək yerinə düşər ki, Rövşən Hüseynovun səhnə uğurları təsadüfi deyil. Nənəsi Azərbaycanın Əməkdar artisti Xədicə Qazıyeva 1927-ci ildə Naxçıvan teatrına gələn ilk milli qadın aktrisalarımızdan olub. Anası Xalq artisti, "Şöhrət" ordenli Sofya Hüseynova, qardaşı Xalq artisti Rafael Dadaşov da bu sənətin vurğunu idilər. 97 il əvvəl bu sənətkar ailənin Naxçıvan teatrına gəlişi sonradan səhnə sənətimizə bir Əməkdar, üç Xalq artisti bəxş edib.

Bu gün Rövşən müəllim arxaya dönüb baxanda görür ki, 70 illik ömrünün böyük bir hissəsi – 56 ili sənətə, teatra həsr olunub. Bu isə bir faktı sübut edir: Xalq artisti Rövşən Hüseynov üçün teatr bir həyat, yaşam tərzidir... Yoxsa bu qədər sevgi haradan ola bilər? 70 yaşın mübarək, həmişəcavan sənətkar!

**Səməd Canbaxşiyev**
**Naxçıvan MR-in Əməkdar artisti**

**Pressfakt**




# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (6)

1970-ci il Azərbaycan üçün yubileylər ili idi. Azərbaycan SSR-in 50 illiyi, sovet dövlətinin qurucusu Leninin 100 illiyi təntənələrlə qeyd olunurdu. Təbii ki, bütün bunlar, ilk növbədə, siyasi-ideoloji önəm kəsb edirdi, amma eyni zamanda respublikanın mədəni həyatında da geniş şəkildə əksini tapırdı. Bununla yanaşı, mədəniyyət, ədəbiyyat sahələrində yubiley təlaşından nisbətən uzaq, sırf yaradıcı mühitdə də proseslər gedirdi.

Mətbu xronikada bu dəfə həmin ilin fevralından, "Ədəbiyyat və incəsənət" qəzetinin bir sayından seçmələr etmişik. Yazılarda dövrün orfoqrafiyası saxlanılıb...

### Bakı qonaqları gözləyir

V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə Bakıda və Azərbaycanın digər şəhərlərində SSR xalqlarının böyük incəsənət bayramı keçiriləcəkdir. "İncəsənət xalqa məxsusdur" devizi altında keçəcək bu bayramda qardaş respublikaların ən yaxşı musiqi kollektivləri və görkəmli incəsənət ustaları iştirak edəcəklər.

Musiqi bayramı münasibətilə Ümumittifaq radiosu və televiziyasının böyük simfonik orkestri, SSRİ xalq artisti, Lenin mükafatı laureatı İqor Moiseyevin rəhbərliyi ilə SSRİ Dövlət Xalq Rəqsləri ansamblı, Belorusiyanın xalq çalğı alətləri və Latviyanın kamera orkestrləri, Estoniyanın "Layne" estrada ansamblı şəhərimizə qonaq gələcəklər.

Yubiley şənliyi günlərində musiqi həvəskarları ölkəmizin görkəmli incəsənət ustalarından SSRİ xalq artisti, Dövlət mükafatı laureatı Leonid Koqanı, SSRİ xalq artisti, Lenin mükafatı laureatı Emil Gilelsi, SSRİ xalq artistkası Bibigül Tulegenovanı da dinləyə biləcəklər. Bunlardan başqa, Azərbaycan, Gürcüstan, Ermənistan, Özbəkistan, Tacikistan, Qırğızıstan respublikalarının məşhur musiqi kollektivləri də incəsənət bayramında iştirak edəcəklər.

Yubiley şənliklərini səmərəli keçirmək üçün respublikamızda təşkilat komitəsi yaradılmışdır. Fevralın 11-də komitənin ilk iclası olmuşdur.

### Yaradıcılıq hesabatları

Bu günlərdə Azərbaycan Yazıçılar İttifaqının rəyasət heyəti ilə ittifaqın ilk partiya təşkilatının birgə iclaslarında tənqidçi-ədəbiyyatşünas Əkbər Ağayevin və yazıçı Anarın yaradıcılıq hesabatları dinlənilib müzakirə edilmişdir.

Ə.Ağayev son illərdəki ədəbi fəaliyyətindən qısa məlumat verdi. M.İbrahimov, S.Rüstəm, R.Rza, H.Şərifov, C.Məmmədov, Y.Əzimzadə, G.Hüseynoğlu çıxış edib göstərdilər ki, Əkbər Ağayev bacarıqlı tənqidçi, bacarıqlı tərcüməçi və Avropa ədəbiyyatının gözəl təbliğatçısıdır. Jül Vernin iki romanının, Bualonun poetikasının dilimizə tərcüməsi mədəni həyatımızda təqdirəlayiq bir hadisədir. Bununla yanaşı, çıxışlarda göstərildi ki, o, müasir ədəbiyyatımızın problemlərini də unutmasın, bugünkü yeni bədii əsərlərimiz barədə daha çox yazsın.

Yazıçı Anar bir sıra hekayə və povestləri ilə oxuculara tanışdır. Ötən il Gənc Tamaşaçılar Teatrı onun "Keçən ilin son gecəsi" adlı pyesini tamaşaya qoyub. Kinostudiyada yazıçının ssenariləri əsasında bədii və sənədli filmlər çəkilib. O, "Dədə Qorqud" dastanı mövzusunda və Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığından bəhs edən əsərlər üzərində işləyir.

M. İbrahimov, Ə.Vəliyev, H.Şərifov, Ə.Kürçaylı, Ə.Ağayev, C.Məmmədov, S.Azəri çıxış edib göstərdilər ki, Anar yenilik duyğusu ilə yaşayan, milli zəminlə bağlı bir yazıçıdır. Onun yaradıcılığında təbiilik, yenilik duyğusu güclüdür.

Yaradıcılıq hesabatlarının gələcəkdə də dinlənilməsi qərara alınmışdır.

### Azərbaycan bəstəkarı Tehranda

Azərbaycanın məşhur bəstəkarı, SSRİ xalq artisti Fikrət Əmirov Tehrana gəlmişdir. Bu yaradıcılıq ezamiyyəti dövründə bəstəkar İranın folklor musiqisi ilə tanış olacaq, İran poeziyasının görkəmli klassiki Sədiyə həsr edilən yeni iri kamera əsəri yaratmaq üçün materiallar toplayacaqdır.

İranın musiqi ictimaiyyəti sovet incəsənət xadimini böyük mehribanlıqla qarşılayıblar.

*"Ədəbiyyat və incəsənət",*
*14 fevral 1970-ci il*

## Xatirə təqvimi — 17 – 20 fevral

### Azərbaycan

**17 fevral 1895** – Qəzəlxan şair, Əməkdar incəsənət xadimi Əliağa Vahid (Əliağa Məmmədqulu oğlu İsgəndərov; 1895 – 1.10.1965) Bakının Masazır kəndində doğulub. Nizami, Xaqani, Füzuli, Nəvai və b. şairlərin qəzəllərini Azərbaycan dilinə tərcümə edib.

**17 fevral 1919** – Ədəbiyyatşünas, mətnşünas, klassik poeziyanın bilicisi Əli Fəhmi (1919 – 13.3.1975) Bakının Sabunçu qəsəbəsində anadan olub.

**17 fevral 1920** – Dilçi-filoloq, professor, Əməkdar elm xadimi Əlövsət Zakir oğlu Abdullayev (1920–1993) anadan olub.

**17 fevral 1926** – Xalq artisti Sofya Həsən qızı Hüseynova (1926 – 30.7.2015) Naxçıvanda doğulub. Naxçıvan teatrının ilk azərbaycanlı aktrisası Xədicə Qazıyevanın qızıdır, uzun illər bu sənət ocağında çalışıb.

**17 fevral 1945** – Əməkdar artist Vəli Allahverdi oğlu Babayev (1945–1989) Naxçıvanda anadan olub. Naxçıvan Musiqili Dram Teatrının baş rejissoru işləyib.

**17 fevral 1958** – Teatr və kino aktyoru Xeyri Osman oğlu Əmirzadə (1893–1958) vəfat edib. Krım türküdür. 1930-cu illərdən Azərbaycanda fəaliyyət göstərib. "Kəndlilər", "Səbuhi", "Bəxtiyar" və s. filmlərdə çəkilib.

**17 fevral 2014** – Prezident İlham Əliyev Xalq artisti, dirijor Tofiq Əhmədovun 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**18 fevral 1201** – Böyük riyaziyyatçı, astronom və filosof Nəsirəddin Məhəmməd ibn Həsən Tusi (1201 – 23.6.1274) Həmədan şəhərində anadan olub. Tusinin yaratdığı Marağa rəsədxanası uzun illər Şərqin mötəbər elm mərkəzlərindən olub. "Əxlaqi-nasiri" etik traktatı, fəlsəfəyə dair əsərlərin müəllifidir.

**18 fevral 1924** – Əməkdar artist Osman İsmayıl oğlu Hacıbəyov (1924–1979) Şuşa şəhərində doğulub. Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub.

**18 fevral 1925** – Publisist, tərcüməçi Hacı Əliheydər oğlu Hacıyev (1925–2008) anadan olub. Uzun illər Azərbaycan Jurnalistlər Birliyinə rəhbərlik edib.

**18 fevral 1934** – Yazıçı-dramaturq, publisist Şamil Xurşud (Şamil Xurşud oğlu Fərzəliyev; 1934–1986) Ucar rayonunda (əslən Ermənistanın Sisyan rayonunun Ağudi kəndindəndir) anadan olub. "Azərbaycan gəncləri" qəzetinin redaktoru, "Kirpi" jurnalının baş redaktoru işləyib. Əsərləri: "Ağaclar kəsilmədi", "Naxırçı çörəyi", "Yolayrıcında" və s.

**18 fevral 1947** – Əməkdar rəssam Ənvər Vahid oğlu Qarayev (1947 – 29.1.2011) Şəkidə anadan olub. Dekorativ-tətbiqi sənət, xalça, batika, parça üzərində tikmə texnikasının mahir ustası idi.

**18 fevral 2021** – Prezident İlham Əliyev Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**19 fevral 1897** – Xalq artisti Antonina Mixaylovna Filippova (1897–1976) anadan olub. Dövlət Rus Dram Teatrında (1935-1950) aktrisa kimi fəaliyyət göstərib.

**19 fevral 1921** – Əməkdar artist, tarzən Məmmədağa Məmmədhəsən oğlu Muradov (1921–1969) Bakıda anadan olub. Azərbaycan Dövlət Filarmoniyası Xalq çalğı alətləri orkestrinin solisti, konsertmeysteri olub, musiqi məktəblərində dərs deyib.

**19 fevral 1948** – Əməkdar rəssam, pedaqoq Fikrət Məmməd oğlu Həşimov (1948 – 8.2.2022) Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda doğulub. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin direktoru olub.

**19 fevral 1949** – Respublika hökuməti Bakıda Üzeyir Hacıbəylinin ev-muzeyinin yaradılması barədə qərar qəbul edib. Qərar Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə, 1975-ci ildə həyata keçdi.

**19 fevral 1949** – Ədəbiyyatşünas, mədəniyyət xadimi, filologiya elmləri doktoru Adilxan Hüseynəli oğlu Bayramov (1949 – 14.4.2021) Gürcüstanın Marneuli rayonunun Sadaxlı kəndində doğulub. S.Vurğunun yaradıcılığı, Tiflis Azərbaycan teatrının, Azərbaycanda muzey işinin tarixi ilə bağlı tədqiqatların müəllifidir.

**20 fevral 1900** – Xalq artisti, aktyor, rejissor Səməd Məmməd oğlu Mövləvi (1900 – 3.2.1962) anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**20 fevral 1915** – Əməkdar artist Rüxsarə Əli qızı Ağayeva (1915 – 26.11.1994) Bakıda anadan olub. Naxçıvan, Qazax teatrlarında, Gənc Tamaşaçılar Teatrında çalışıb, filmlərdə çəkilib.

**20 fevral 1925** – Əməkdar artist, vokalçı Kamal Həmid oğlu Kərimov (1925 – 13.1.1992) Bakıda doğulub. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb.

**20 fevral 1928** – Tanınmış şair, dramaturq Əliağa Kürçaylı (Əliağa Həsənağa oğlu Vəliyev; 1928 – 11.2.1980) Salyan rayonunun Kürqaraqaşlı kəndində doğulub. Kitabları: "Yollarda axtar məni", "Həyatın dolayları", "Dünya ovcumdadır" və s. Rus poeziyasından tərcümələr edib.

**20 fevral 1935** – Şərqşünas, professor Şulan İsmayıl oğlu Şirəliyev (1935–2013) anadan olub.

**20 fevral 1938** – Dilçi alim, türkoloq Cəfər İsmayıl oğlu Cəfərov (1938–1996) anadan olub.

**20 fevral 1957** – Ustad tarzən, Əməkdar artist Məmmədxan Məmmədrza oğlu Bakıxanov (1890–1957) vəfat edib. Uzun müddət Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski kimi məşhur xanəndələri müşayiət edib.

**20 fevral 1960** – Əməkdar artist Adil Ağakərim oğlu Zeynalov (1960 – 12.3.2020) anadan olub. Lənkəran Dövlət Dram Teatrında aktyor və rejissor işləyib.

**20 fevral 1984** – Böyük bəstəkar, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov (22.11.1922 – 1984) vəfat edib. Simfonik muğamlar, "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", "Sevil" operası və s. əsərlərin müəllifidir. Bəstəkarın "Min bir gecə" baleti dünya musiqi xəzinəsinə daxildir.

**20 fevral 2014** – Xalq artisti, tanınmış teatr və kino aktrisası Firəngiz Abbas Mirzə qızı Şərifova (6.2.1924 – 2014) vəfat edib.

**20 fevral 2021** – Əməkdar rəssam Qüdrət Hacıbəy oğlu Məmmədov (12.12.1936 – 2021) vəfat edib. Şəki Dövlət Dram Teatrının baş rəssamı işləyib.

**20 fevral 2023** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Ramiz Qəvvam oğlu Novruz (25.5.1955 – 2023) vəfat edib.

### Dünya

**17 fevral 1600** – İtalyan filosofu və şairi Cordano Bruno (Giordano Bruno; 1548-1600) inkvizisiyanın (Katolik kilsəsinin məhkəməsi) qərarı ilə edam edilib.

**17 fevral 1906** – Rus-sovet yazıçısı, uşaqlar üçün çoxsaylı əsərlərin, film ssenarilərinin müəllifi Aqniya Lvovna Barto (1906-1981) anadan olub.

**18 fevral 1838** – Avstriya filosofu, pozitivizmin tanınmış nümayəndəsi Ernst Max (Ernst Mach; 1838-1916) anadan olub.

**18 fevral 1932** – Çexəsilli Amerika kinorejissoru Miloş Forman (Milosh Forman – Jan Tomash Forman; 1932 – 13.4.2018) anadan olub. "Qu quşunun yuvası üzərindən uçuş" filmi (1975) 5 nominasiyada, "Amadey" filmi (1984) 8 nominasiyada "Oskar" mükafatına layiq görülüb.

**18 fevral 1934** – Rusiyanın Xalq artisti, sirk ustası Muxtarbek Kantemirov (1934–2017) anadan olub. "Azərbaycanfilm"də "Qorxma, mən səninləyəm!" filmində çəkilib.

**19 fevral 1473** – Polyak astronomu, riyaziyyatçı, mütəfəkkir Nikolay Kopernik (1473 – 24.5.1543) anadan olub. Dünyanın heliosentrik sistemi (planetlərin Günəş ətrafında fırlanması) nəzəriyyəsinin banisi sayılır.

**19 fevral 1743** – İtalyan bəstəkarı Luici Bokkerini (Luigi Boccherini; 1743–1805) anadan olub.

**19 fevral 1821** – Alman dilçi-alimi, linqvistikanın tanınmış simalarından biri Avqust Şleyxer (August Schleicher; 1821–1868) anadan olub.

**20 fevral 1925** – Amerika rejissoru, ssenarist Robert Altman (1925–2006) anadan olub. Avropanın üç əsas festivalının (Kann, Venesiya, Berlin) qalibi olan yeganə amerikalı rejissordur.

**20 fevral 1967** – Dünyaca məşhur amerikalı rok-musiqiçi, "Nirvana" qrupunun rəhbəri Kurt Kobeyn (Kurt Donald Cobain; 1967–1994) anadan olub.

**Hazırladı: V.Orxan**

№13 (2078)
16 fevral 2024
www.medeniyyet.az

# Afrika koloritli "Ümid sınağı"

## Londonda yaşayan qanalı rəssamın Bakıda sərgisi açılıb

əvvəli səh. 1-də

Açılış mərasimində çıxış edən serginin kuratoru Jan-Davit Malat (Jean-David Malat) Bakıya səfərinin bu əsərləri digər insanlara sərgiləməklə yanaşı, həmçinin gözəl şəhərdən həzz almaq imkanı yaratdığını deyib. O, Kojo Marfonun solo sərgisinin təşkil edilməsinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərova öz minnətdarlığını bildirib, bundan sonra da bu cür sərgilərin keçiriləcəyinə ümidvar olduğunu söyləyib.

Rəssam Kojo Marfo çıxışı zamanı bildirib ki, sərgi onun uşaqlıq illərində gördüklərinə ithaf olunub, hər bir əsərin ardında bir mesaj dayanıb və bu mesajlar əsərlərlə insanlar arasında olan bağlantını əks etdirir. "Mənim üçün böyük şərəfdir ki, yaratdığım əsərləri belə gözəl, möhtəşəm binada sərgiləmək imkanı qazandım. Bunun üçün Heydər Əliyev Fonduna minnətdarlığımı bildirirəm", – deyə o əlavə edib.

Sonra sərgiyə baxış olub.

Ekspozisiyada qanalı rəssamın əlvan rəngləri ilə nəzərləri özünə cəlb edən, izləyicilərinə xoş, hətta bəzən bayram əhvali-ruhiyyəsi bəxş edən 20-dən çox əsəri nümayiş olunub. Əsərlər onun uşaqlıq xəyallarını müasir dünyanın reallığı ilə bir-birinə qarışdırır. Hər bir əsərində məna və emosiya qatları ziyarətçilərə Kojo Marfonu daha dərindən kəşf etmək imkanı qazandırır.







Sərgi ziyarətçilərə rəssamın fərqli zəkasını, yumor hissini və dərin müşahidə bacarığını nümayiş etdirir.

Qeyd edək ki, Qanada doğulub-böyüyən Kojo Marfo Londonda yaşayır. O, uşaqlıqdan tanış olduğu Afrikanın ənənəvi Akan artefaktlarının, heykəllərinin təsiri altında rəssam kimi inkişaf edib. Çoxsaylı səyahətlər də onun müxtəlif mədəniyyətlərlə tanışlığına və həmin mədəniyyətlərin yaradıcılığında əks edilməsinə səbəb olub. Rəssamın yaradıcılığı ilə tanışlıq da mədəniyyət dəhlizləri ilə səyahət etməyə bənzəyir.

Kojo Marfonun əsərləri bundan əvvəl Amsterdam, Barselona, London, Nyu-York, Paris, Tokio və digər şəhərlərdə nümayiş etdirilib.

# "Kömür başlar" – London avanqardının sərgisi



Britaniya təsviri sənətində London avanqardının həyatda olan ən məşhur nümayəndəsi Frank Auerbaxın "Kömür başlar" adlı sərgisi Kurto Qalereyasında (Courtauld Gallery) sənətsevərlərə təqdim edilib.

Sərgi 93 yaşlı britaniyalı rəssamın erkən şah əsərlərini görmək üçün imkandır. Bildirilir ki, mayın 27-dək davam edəcək sərgidə Frank Auerbaxın 23 heyranedici rəsm silsiləsi ilk dəfə nümayişə çıxarılıb.

"London məktəbi"nin nümayəndələri (Frensis Bekon, Lüsyen Freyd, Frank Auerbax və b.) Britaniya incəsənətində İkinci Dünya müharibəsindən sonra məşhurlaşıblar. 60-cı illərdə populyarlıq enişi yaşasalar da, sonra dirçəliş prosesindən bəri onların britaniyalı müasir ustadlar statusu artmağa davam edib.

Bu gün də yaradıcılıq fəaliyyətini davam etdirən rəssamın "Frank Auerbax: kömür başlar" sərgisində 1950-ci və 1960-cı illərin əvvəlində çəkdiyi qeyri-adi rəsmlər ilk dəfə vahid qrupda təqdim edilib. Bu, müharibədən sonrakı dövrün London təsviri sənətinin ən yaxşı məktəbinin nümunələridir.

# "Cem Karacanın göz yaşları"na baxmaq mümkün olmayacaq

## Film kinoteatrlarda yayımdan niyə çıxarılıb?

Anadolu rok musiqisinin əfsanəvi adı Cem Karacanın həyatından bəhs edən "Cem Karacanın göz yaşları" filmi nümayişdən çıxarılıb. Buna səbəb Cem Karacanın ailə üzvlərinin filmə müəlliflik haqqı (o cümlədən nümayişdən əldə olunacaq gəlirdən ailəyə ödənilməli məbləğ) ilə bağlı mübahisəsidir.

Cem Karacanın son həyat yoldaşı İlkim Karaca filmdə onun da haqqının olduğunu bildirərək yayımının dayandırılması üçün məhkəməyə müraciət etmişdi. O, məhkəmə tərəfindən müəyyən edilən 3,5 milyon TL zəmanət məbləğini yatırandan sonra filmin nümayişinin dayandırılmasına qərar verilib.

Cem Karacanın əvvəlki həyat yoldaşı Feride Balkandan olan oğlu Emrah Karaca mətbuat konfransı keçirərək bildirib ki, atasının əsərlərinin hüquqlarının 4/3-ü ona məxsusdur. İlkim Karaca isə hüquqların ona məxsus 4/1-ni 2018-ci ildə bir musiqi şirkətinə satıb: "Buna baxmayaraq, prodüserlərimiz onunla görüşdü, lakin o, 16 milyon TL tələb etdi. Biz bunu qəbul etməyəndə aqressivləşdi".

O bildirib ki, filmin çəkilişi 90 milyon TL büdcəyə başa gəlib, İlkim Karacanın məhkəməyə zəmanət olaraq verdiyi 3,5 milyon TL hansı zərəri ödəyəcək?



Məhkəmənin qərarından sonra prodüser şirkəti də açıqlama yayıb: "Əfsanəvi sənətçimiz Cem Karacanın xatirəsinə yaraşan, böyük səy və səbirlə çəkilişlərini tamamladığımız və 26 yanvarda tamaşaçıların ixtiyarına verdiyimiz "Cem Karacanın göz yaşları" filminin yayımı iddiaçı tərəfin yatırdığı zəmanətlə məhkəmə tərəfindən yayımdan qaldırılıb".

Cem Karacanın ekran həyatına varislik üstündə çəkişmənin bundan sonra da davam edəcəyi görünür...

**V.Kamal**

# Brüsseldə "Naxışların rəqsi"

## "Şuşa" süni zəkasının təqdimatı ilə Azərbaycanın rəqəmsal incəsənət sərgisi

Azərbaycanın Belçikadakı Səfirliyinin dəstəyi ilə Brüsselin Kral parkında yerləşən "Cercle Royal Gaulois" mədəniyyət sarayında 12-13 fevral tarixlərində "Naxışların rəqsi" adlı Azərbaycan rəqəmsal incəsənət sərgisi keçirilib.



Sərgidə cari ildə Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunması ilə əlaqədar "Şuşa" adlı süni zəka tərəfindən Azərbaycanın mədəni irsi əsasında yaradılmış rəqəmsal incəsənət əsərləri, eləcə də milli motivləri əks etdirən kəlağayılar nümayiş etdirilib.

Qeyd edək ki, "Şuşa" süni zəka layihəsi Türkiyədə yaşayan soydaşımız Nabat Qaraxanovanın rəhbərliyi ilə "Mezo Art" rəqəmsal incəsənət qrupunun azərbaycanlı və türkiyəli sənətkar və mühəndisləri tərəfindən Azərbaycan mədəniyyətinin beşiyi olan şəhərin qədim ənənəvi incəsənətinin innovativ texnologiyalar vasitəsilə canlandırılması məqsədilə yaradılıb.

Sərginin açılışında Azərbaycanın Belçikadakı səfiri Vaqif Sadıqov çıxış edərək "Şuşa" süni zəka layihəsinə görə Nabat Qaraxanovaya və onun "Mezo Art" komandasına təşəkkürünü bildirib.

Nabat Qaraxanova açılış tədbirinə qatılan qonaqlara – diplomatik korpusun təmsilçilərinə, Belçikanın mədəniyyət, media mənsublarına və bu ölkədəki azərbaycanlı icmasının nümayəndələrinə layihə barədə ətraflı məlumat verib.

# Milyon əsr öncənin tarixi 200 il əvvəl üzə çıxıb

## Dinozavrlar elmə necə məlum olublar?

1824-cü il fevralın 20-də ingilis təbiətşünası və ilahiyyatçısı Vilyam Baklənd London Geoloji Cəmiyyətinə müraciət edərək Oksford yaxınlığındakı Stounzfild kəndində şifer karxanasında tapılan nəhəng çənə və ətraf sümüklərini təqdim edib. O bu fosillərin nəhəng keçmiş sürünənlərə aid olduğunu anladıb və ona ilk elmi ad verib: "meqalozavr", yəni "böyük kərtənkələ". Bununla da, ilk dinozavr elmdə tanınıb, baxmayaraq ki, "dinozavr" sözü 1840-cı illərə qədər işlənməyib.



Edinburq Universitetinin paleontoloqu Stiv Brusatt həmin kəşflə bağlı bildirib: "Bu bizim dinozavrlara olan məftunluğumuzun başlanğıcı idi. Onun elan edilməsindən sonra insanlar İngiltərədə və bütün Avropada nəhəng heyvan sümükləri axtarmağa başladılar".

Aradan keçən 200 il ərzində dinozavrlarla bağlı elmi tədqiqatlar inkişaf edərək bu canlıların necə göründüyü, necə yaşadıqları, necə təkamül keçirdikləri və onları nəyin məhv etdiyi barədə məlumat verdi. Dinozavrlar Mezozoy erasında təxminən 231 milyon il əvvəldən 66 milyon il əvvələ qədər mövcud olublar.

Oksford Universitetinin Təbiət Tarixi Muzeyindən paleontoloq Emma Nikolls deyib: "Bizim dinozavrlar haqqında anlayışımız XIX əsrdən bəri əhəmiyyətli dərəcədə dəyişdi. Həmin dövrdə yaşamış Baklənd və digər təbiətşünaslar indi bu biliklərimizdən heyrətə gələrdilər".

Məsələ burasındadır ki, XIX əsrin paleontoloqları dinozavrın hansı dövrdə yaşadığını bilmir və Yerin tarixinin də cəmi bir neçə min il olduğuna inanırdılar. Alimlər indi bilirlər ki, Yer kürəsinin təxminən 4,5 milyard il yaşı var və meqalozavr təxminən 165 milyon il əvvəl yaşayıb.

ABŞ-nin Nyu-Cersi ştatında hadrozavr və driptozavr kimi nəhəng heyvan qalıqlarının sonrakı kəşfi bəzi dinozavrların ikiayaqlı olduğunu göstərdi və onların sürünən kərgədanlara bənzədiyinə dair təsəvvürü dəyişdi. Təxminən 1870-ci illərdən başlayaraq əvvəlcə Amerikada, sonra Belçikada və başqa yerlərdə tapılan ilk tam böyük dinozavr skeletləri onların fərqli anatomiyasını və müxtəlifliyini nümayiş etdirdi.

## Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (16 – 19 fevral)



### 161 il əvvəl...



**17 fevral 1863-cü ildə** Cenevrədə Beynəlxalq Qırmızı Xaç Komitəsi təsis edilib. Dünyanın "qaynar" nöqtələrində humanitar fəaliyyət göstərən təşkilatın təşəbbüskarı və ilk rəhbəri isveçrəli iş adamı, ictimai xadim Anri Dünan (Jean Henri Dunant) olub.

### 146 il əvvəl...

**19 fevral 1878-ci ildə** Rusiya ilə Türkiyə (Osmanlı) arasında növbəti müharibə başa çatıb və tərəflər arasında ilkin sülh sənədi – San-Stefano müqaviləsi imzalanıb. Müqavilə ilə Osmanlı dövləti Balkanlar üzərində faktiki nəzarəti itirib.

### 108 il əvvəl...

**16 fevral 1916-cı ildə** I Dünya müharibəsi gedişində Qafqaz cəbhəsində hücumu davam etdirən Rusiya qoşunları Türkiyənin Ərzurum bölgəsini işğal ediblər. Rusiya bunadək Türkiyənin 1877–1878-ci illər müharibəsində itirdiyi Qars və Ərdəhan bölgələrinə də nəzarət edirdi. Türkiyə Birinci dünya müharibəsindən sonra (1918) hər üç bölgəni Rusiyadan geri ala bildi.

### 72 il əvvəl...

**18 fevral 1952-ci ildə** Türkiyə ilə Yunanıstan NATO üzvlüyünə qəbul olunub. Kipr və Egey dənizi məsələlərində aralarında mübahisə olan iki dövlətin eyni vaxtda alyansa qəbulu NATO-nun prinsipial mövqeyi idi.

### 70 il əvvəl...

**19 fevral 1954-cü** ildə SSRİ rəhbəri Nikita Xruşşovun təşəbbüsü ilə Krım vilayəti Rusiyanın tərkibindən çıxarılaraq Ukrayna SSR-ə verilib. 27 min kvadrat kilometr ərazisi olan Krım vilayəti 1945-ci ildə təşkil olunmuşdu. Xruşşov Ukraynanın Rusiyaya birləşdirilməsinin (1654) 300 illiyi münasibətilə bu jesti etmişdi.

### 59 il əvvəl...

**18 fevral 1965-ci ildə** Böyük Britaniyanın Afrikadakı müstəmləkəsi olan Qambiya dövlət müstəqilliyini elan edib.

### 45 il əvvəl...



**17 fevral 1979-cu ildə** Çin qoşunları Vyetnam ərazisinə daxil olaraq ölkənin bir hissəsini işğal edib. Beynəlxalq ictimaiyyətin kəskin etirazını doğuran işğal martın 5-dək davam etdi.

### 32 il əvvəl...

**16 fevral 1992-ci ildə** Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO – Economic Cooperation Organization) üzv olub. Təşkilatın Tehranda keçirilən toplantısında keçmiş SSRİ-nin daha beş respublikası – Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Tacikistan da üzvlüyə qəbul edilib. ECO 1985-ci ildə Türkiyə, İran və Pakistan tərəfindən təsis edilib. Hazırda Əfqanıstan da daxil olmaqla 10 ölkəni birləşdirir.

**17 fevral 1992-ci ildə** erməni silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocavənd (Martuni) rayonunda azərbaycanlıların yaşadığı Qaradağlı kəndini işğal ediblər. Bunadək kənd dəfələrlə ermənilərin hücumlarına məruz qalmışdı. İşğal zamanı kənddə olan 116 nəfər əsir götürülmüş, onların 68 nəfəri daha sonra öldürülmüşdü. Qaradağlı kəndi 2023-cü ilin 19-20 sentyabr antiterror əməliyyatından sonra Azərbaycanın tam suverenliyi altına qayıtdı.

### 15 il əvvəl...

**18 fevral 2009-cu ildə** Bakıda "İslam mədəniyyətinin paytaxtı 2009" ilinin açılış mərasimi keçirilib. Bakı şəhəri İslam ölkələri elm, təhsil və mədəniyyət təşkilatı – ICESCO-nun 2007-ci ildə qəbul etdiyi qərarla "İslam mədəniyyətinin paytaxtı" elan olunmuşdu.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5090. **Sifariş:** 393
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641